Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Təhsil İnstitutu
Azərbaycan Respublikasının Təhsil İnstitutu

İxtisasın adı: Korreksiyaedici pedaqoq



# İNKLÜZİV TƏHSİLƏ CƏLB OLUNAN ŞƏXSLƏRLƏ İŞİN APARILMASI

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək" (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəlliflər:** Nailə Hüseynova, Lalə İmanova

**Modul üzrə məsləhətçi:** Mehparə Əhmədova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT

**ƏSAS ANLAYIŞLAR** ..... **7**

**GİRİŞ** ..... **8**

**MODULUN SPESİFİKASİYASI** ..... **9**

**TƏLİM NƏTİCƏSİ 1: İNKLÜZİV TƏHSİLƏ CƏLB OLUNAN ŞƏXSLƏRLƏ APARILAN İŞLƏRİN MƏZMUNUNU MÜƏYYƏN ETMƏK** ..... **11**

1.1. Şəxsin sosial və psixoloji-pedaqoji vəziyyəti ilə bağlı fərdi iş planı hazırlayır ..... 12

Tələbələr üçün fəaliyyətlər ..... 20

Qiymətləndirmə ..... 21

1.2. Şəxsin idrak imkanlarına uyğun olaraq onun təhsil aldığı müəssisənin təhsil standartlarından (proqramlarından) istifadə edir ..... 22

Tələbələr üçün fəaliyyətlər ..... 30

Qiymətləndirmə ..... 31

1.3. Mənimsəmə çətinlikləri və onların həlli yollarını qaydalara uyğun şəkildə müəyyən edir ..... 32

Tələbələr üçün fəaliyyətlər ..... 37

Qiymətləndirmə ..... 38

1.4. Fəaliyyətini psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında həyata keçirir ..... 39

Tələbələr üçün fəaliyyətlər ..... 42

Qiymətləndirmə ..... 43

**TƏLİM NƏTİCƏSİ 2: İNKLÜZİV TƏHSİLƏ CƏLB OLUNAN ŞƏXSLƏRƏ SOSİAL-PSİXOLOJİ DƏSTƏK VERMƏK** ..... **45**

2.1 Şəxslərin sosiallaşmasını və cəmiyyətə uğurlu inteqrasiyasını həyata keçirmək üçün müvafiq metodlar seçir ..... 46

Tələbələr üçün fəaliyyətlər ..... 51

Qiymətləndirmə ..... 52

2.2. Ətrafdakılarla əlverişli sosial əlaqələrin qurulmasına dəstək verir ..... 53

Tələbələr üçün fəaliyyətlər ..... 55

Qiymətləndirmə ..... 56

2.3. Fərdi proqramı reallaşdırmaq üçün yeni təlim metodlarından müvafiq şəkildə istifadə edir ..... 57

Tələbələr üçün fəaliyyətlər ..... 67
Qiymətləndirmə ..... 68
2.4. Həyata keçirdiyi təlim-tərbiyə işlərini müəyyən olunmuş meyarlar əsasında qiymətləndirir ..... 69
Tələbələr üçün fəaliyyətlər ..... 75
Qiymətləndirmə ..... 76
2.5. Fəaliyyət planlarının yenilənməsi zamanı qiymətləndirmə nəticələrindən müvafiq qaydada istifadə edir ..... 77
Tələbələr üçün fəaliyyətlər ..... 80
Qiymətləndirmə ..... 81
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ..... 82**

# ƏSAS ANLAYIŞLAR

**Adaptasiya –** (lat. “adapto” - uyğunlaşma) xüsusi qayğıya ehtiyacı olan (anomal) uşaqların davranışını cəmiyyət normalarına yaxınlaşdırmaq və bu cəmiyyətdə olan qanun-qaydalara uyğunlaşdırılması.

**FTP –** fərdi təlim planı. təlim üçün tərtib olunan tədbirlər ardıcıllığı.

**İnklüzıv təhsil –** inkluziv təhsil (fr. “inclusif » - "özünə daxil edən") - ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan təhsil prosesi. bu, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını da təmin edir.

**İnteqrativ təhsil –** sağlamlıq imkanları məhdud şəxslərin təhsili. fiziki və psixi çatışmazlıqlar nəticəsində ümumtəhsil proqramını mənimsəyə bilməyən şəxslərin ayrıca siniflərdə xüsusi təhsil almaları.

**Perseptiv metodlar –** qavramaya, hissiyata əsaslanana metodlar.

**Qnostik metodlar –** tədqiqata, öyrənməyə əsaslanan metodlar.

**PTPK –** psixoloji-tibbi-pedaqoji komissiya.

**Reabilitasiya –** (lat. “reabilitas” – bərpa etmək) **–** fərdi, funksional qabiliyyətlərinin daha yüksək nəticəyə çıxmaq üçün hazırlığı və yenidən hazırlığı məqsədi ilə həyata keçirilən kompleks tibbi, sosial təhsil və peşə xarakterli tədbirlərin tətbiqi və bərpası.

**Sosiallaşma –** (lat. “sosialis” - ictimai) - insan tərəfindən ictimai həyatın bilik və vərdişlərinin mənimsənilməsi, davranışın ictimai steriotiplərinin işlənilməsi, cəmiyyətdə qəbul edilən dəyərlərə yiyələnmə prosesi və nəticəsi. sosiallaşma şəxsiyyətə imkan verir ki, cəmiyyətin tam hüquqlu üzvü kimi fəaliyyət göstərsin, o, insanda sosial dəyərlərə adekvat münasibətin formalaşması ilə bağlıdır. sosiallaşma prosesində insan sosial normaları mənimsəyir, sosial rolu icrası qabiliyyətlərə yiyələnir, ictimai davranış vərdişlərinə malik olur.

**Xüsusi təhsil –** sağlamlıq imkanları məhdud şəxslərin təhsili. fiziki və psixi çatışmazlıqlar nəticəsində ümumtəhsil proqramını mənimsəyə bilməyən şəxslərin ayrıca müəssisədə xüsusi təhsil almaları.

**Xüsusi təhsil ehtiyacları olan şəxslər –** inkişafında kənaraçıxmalar nəticəsində əmələ gələn məhdudiyyətləri və çətinlikləri aşmaq üçün xüsusi pedaqoji yardıma və xüsusi təhsil metodlarına ehtiyacı olan şəxslər.

# GİRİŞ

**Hörmətli oxucu!**

Bu modul təhsilalanlara inklüziv təhsilə cəlb olunan şəxslərlə aparılan işlərin məzmununun müəyyən edilməsi, sosial-psixoloji dəstəyin verilməsi və təlim-tərbiyə işlərinin müəyyən meyarlar əsasında qiymətləndirilməsi üçün bilik və bacarıqlar verir.

Bu modul korreksiyaedici müəllim ixtisası üzrə peşəkar səriştələrinin inkişafının təmin edilməsi məqsədi ilə hazırlanmışdır. Modulda, inklüziv təhsilin tələbləri nəzərə alınaraq çox komponentli təhsil mühitinin hazırlanmasında təhsilalanların bacarıqlarının inkişaf etdirilməsi üçün tələbə fəaliyyəti və müvafiq qiymətləndirmələr verilmişdir.

İnklüziv təhsil haqqında qəbul olunmuş proqramda xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri ilə işin aparılması, bu sahədə ictimaiyyətin fəal iştirakı, imkansız ailələrdə belə uşaqların təhsilinin təmin edilməsi, mənəvi ehtiyaclarının ödənilməsi, öz tipik həmyaşıdları ilə birlikdə təhsil almaq imkanı, onları cəmiyyətin fəal üzvü kimi formalaşdırılmasına kömək qarşıda duran əsas vəzifə kimi öz əksini tapmışdır. Belə ki, sağlamlıq imkanları məhdud olan şəxslər (SİMŞ) dövlət tərəfindən himayə olunur və onlar üçün bərabər imkanlar yaradılır.

Təhsil haqqında Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsində qeyd olunur: "Dövlət cinsi, irqi, dili, siyasi əqidəsi, milliyəti, sosial vəziyyəti, mənşəyi və sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanının yaradılması və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir".

İki təlim nəticəsindən ibarət olan modulu uğurla bitirən tələbənin bir çox bacarıqlara yiyələnəcəyi gözlənilir. Hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu açıqlanmış, verilən məzmunun möhkəmləndirilməsi məqsədi ilə "tələbələr üçün fəaliyyətlər" və təhsilalanın məzmunu hansı səviyyədə qavradığını qiymətləndirilməsi məqəsdi ilə "qiymətləndirmə" bölməsi verilmişdir.

Birinci təlim nəticəsi inklüziv təhsilə cəlb olunan şəxslərlə aparılan işlərin məzmunu, ikinci təlim nəticəsi isə inklüziv təhsilə cəlb olunan şəxslərə sosial-psixoloji dəstəyin verilməsindən bəhs edir.

**Əziz təhsilalanlar!** Unutmayın ki, gələcək fəaliyyətinizin yüksək səviyyədə qurulmasının əsası sizə təqdim edilən materialların həm nəzəri, həm də praktiki mənimsənilməsindən çox asılıdır.

## MODULUN SPESİFİKASİYASI

| | |
|---|---|
| **Modulun adı:** | İnklüziv təhsilə cəlb olunan şəxslərlə işin aparılması |
| **Modulun kodu:** | SS-2020-08 |
| **Modulun ümumi məqsədi:** | *Təhsilalan bu modulu uğurla tamamladıqdan sonra şəxsin sosial və psixoloji-pedaqoji vəziyyəti ilə bağlı plan hazırlamaq, şəxsin psixoloji vəziyyəti ilə bağlı həll yollarını tapmaq və şəxslərə sosial-psixoloji dəstək verməyi bacaracaqdır.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. İnklüziv təhsilə cəlb olunan şəxslərlə aparılan işlərin məzmununu müəyyən etmək | ➢ Şəxsin sosial və psixoloji-pedaqoji vəziyyəti ilə bağlı fərdi iş planı hazırlayır;<br>➢ Şəxsin idrak imkanlarına uyğun olaraq onun təhsil aldığı müəssisənin təhsil standartlarından (proqramlarından) istifadə edir;<br>➢ Mənimsəmə çətinlikləri və onların həlli yollarını qaydalara uyğun şəkildə müəyyən edir;<br>➢ Fəaliyyətini psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında həyata keçirir. |
| 2. İnklüziv təhsilə cəlb olunan şəxslərə sosial-psixoloji dəstək vermək | ➢ Şəxslərin sosiallaşması və cəmiyyətə uğurlu inteqrasiyasını həyata keçirmək üçün müvafiq metodlar seçir;<br>➢ Ətrafdakılarla əlverişli sosial əlaqələrin qurulmasına dəstək verir;<br>➢ Fərdi proqramı reallaşdırmaq üçün yeni təlim metodlarından müvafiq şəkildə istifadə edir;<br>➢ Həyata keçirdiyi təlim-tərbiyə işlərini müəyyən olunmuş meyarlar əsasında qiymətləndirir;<br>➢ Fəaliyyət planlarının yenilənməsi zamanı qiymətləndirmə nəticələrindən müvafiq qaydada istifadə edir. |

# TƏLİM NƏTİCƏSİ 1

## İNKLÜZİV TƏHSİLƏ CƏLB OLUNAN ŞƏXSLƏRLƏ APARILAN İŞLƏRİN MƏZMUNUNU MÜƏYYƏN ETMƏK

## 1.1. Şəxsin sosial və psixoloji-pedaqoji vəziyyəti ilə bağlı fərdi iş planı hazırlayır

Tədris ilinin əvvəlində təqribən bir ay müddətində aparılan qiymətləndirmə başa çatdıqdan sonra müəllim, valideyn və mütəxəssislərdən ibarət komandanın qarşısında duran əsas məsələ SİM uşaqların ehtiyaclarının müəyyənləşdirilməsi, onlar üçün iş planı və ya fərdi təlim planlarının işlənib hazırlanmasıdır.

Gələcək planı hazırlayarkən hər bir uşağın problemi və psixoloji-pedaqoji (qavrama, dərketmə, diqqət və s.) xüsusiyyətləri nəzərə alınmalıdır.

**SİMŞ-in psixo-pedaqoji vəziyyətinə təsir edən amillər**

İnsan şəxsiyyəti bir çox amillərin təsiri və qarşılıqlı fəaliyyətinin nəticəsi kimi formalaşır. Bu prosesdə bioloji amillər, mühit amili, tərbiyə və şəxsi fəallığın rolu vardır.

**İrsiyyətin rolu.** İnsan bioloji varlıq kimi doğulur, buna görə də irsiyyət qanunu ona öz təsirini göstərir. İrsən fiziki əlamətlər (qamət, sifət quruluşu, göz, saçın rəngi və s.), habelə fizioloji əlamətlər (sinir sisteminin tipi, sinir hüceyrələrinin miqdarı və s.) nəsildən-nəslə keçir. İnsan nə hazır qabiliyyətlə, nə də "ağ lövhə" kimi doğulur. O, müəyyən təbii imkanlarla dünyaya gəlir. Təbii imkanlara sinir sistemi və beyin quruluşunun xüsusiyyətləri, analizatorlar sistemi (görmə, eşitmə), nitq aparatı və s. daxildir. İnsanın təbii imkanları dəyişməz deyildir. Onlar həyat şəraiti, tərbiyə və mühitin təsiri ilə dəyişilə bilər.

**Mühitin rolu.** Mühit insana müsbət və ya mənfi təsir göstərə bilər. İnsanlar üçün yaradılan əlverişli mənzil-məişət şəraiti, mədəni-maarif, təhsil və sağlamlıq müəssisələrinə əlçatanlıq, əmək və istirahət şəraiti və insan münasibətləri şəxsiyyətin inkişafına güclü təsir göstərən sosial mühit amillərinə daxildir.

Cəmiyyətdə gedən proseslər ailə, məktəb və əmək kollektivlərinə öz təsirini göstərir. Cəmiyyətin demokratik xarakteri, hüququn aliliyinin və ədalət prinsiplərinin səviyyəsi şəxsiyyətin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Şəxsiyyətin tələbatları və mənəvi sərvətlərini də cəmiyyət müəyyən edir.

**Tərbiyənin rolu.** Mühit insana kortəbii təsir göstərirsə, tərbiyə məqsədyönlü və planlı aparılır. İnsanın mühitə münasibəti tərbiyə ilə bağlıdır və onunla tənzimlənir. Tərbiyə mühitin müsbət cəhətlərinə istinad edir və onun mənfi təsirlərini neytrallaşdıra bilir. Tərbiyə insanın təbii imkanlarının üzə çıxarılması və inkişafına kömək göstərir. O, uşaqların həyat və fəaliyyətini təşkil etməklə onların maraq və qabiliyyətlərinin inkişafına əlverişli şərait yaradır. Bir sözlə, tərbiyə şəxsiyyəti "layihələşdirir".

**Şəxsi fəallığın rolu.** İnsan mühit və tərbiyənin passiv obyekti kimi yox, fəal subyekti kimi çıxış edir. Mühit və tərbiyə prosesi insanın şəxsiyyət kimi formalaşmasına fəal təsir göstərir. Tərbiyə uşaq və yeniyetmələri ancaq obyekt kimi qəbul edərsə, o zaman çox şeydən məhrum olar və öz məqsədinə çata bilməz. İnsanın şəxsi fəallığı müxtəlif formalarda təzahür edir: zehni, əmək, fiziki, yaradıcı və ictimai-siyasi. Öyrənmə fəaliyyəti insanın bilik və bacarıqlara yiyələnməsi, ideya-mənəvi tərbiyəsi və psixi inkişafına kömək göstərir. Əmək fəaliyyəti gənc nəslin əmək və peşə hazırlığının, əxlaqi və fiziki tərbiyəsinin, xarakter və iradəsinin formalaşdırılmasında böyük rol oynayır. İctimai fəaliyyət prosesində yeniyetmə

və gənclər sosial təcrübə qazanır, ünsiyyət mədəniyyəti və kollektivçilik keyfiyyətlərinə yiyələnirlər.

Nəzərdən keçirilən amillər - irsiyyət, mühit, tərbiyə və insanın şəxsi fəallığı bir-biri ilə sıx bağlı olub, bir-birini şərtləndirir. (9)

**Aktual və yaxın inkişaf zonaları.** Təlimi inkişafın lokomativi kimi görən və onu da öz arxasınca apardığı fikrini əsas götürən L.S.Vıqotski təlimlə əlaqədar baş verən əqli inkişafın iki səviyyəsi və ya zonasını müəyyən etmişdir. (17)

Birinci səviyyə inkişafın fəal və aktual zonası adlandırılmışdır. Bu zonada şagird gündəlik dərslər və verilmiş təlim tapşırıqlarını müstəqil surətdə yerinə yetirir, başqasının köməyi olmadan dərsdə müvafiq materiallardan istifadə edir. Müəllimin şərh etdiyi bəzi cəhətləri izah etməyə təşəbbüs göstərir, nəhayət, onda əqli inkişaf elə bir səviyyəyə çatır ki, sonralar hər hansı bir məsələni heç kimə ehtiyacı olmadan həll edə bilir. Bütün bunların nəticəsində şagird bilikləri müstəqil şəkildə mənimsəməyi və elmlərin əsaslarına yiyələnməyi bacarır.

Əqli inkişafın ikinci səviyyəsində isə uşaq böyüklərin və müəllimin köməyi ilə daha yüksək nailiyyət əldə edə bilir. L.S.Vıqotski inkişafın bu səviyyəsini "inkişafın yaxın zonası" adlandırmışdır. Bu münasibətlə yazmışdır: "Uşaq nəyi böyüyün köməyi ilə etmək iqtidarındadırsa, bu, onun yaxın inkişaf zonasını göstərir. Beləliklə, yaxın inkişaf zonası uşağın sabahkı günü və onun inkişafının dinamik vəziyyətini müəyyənləşdirməkdə bizə kömək göstərir". Təlim öz səmərəli nəticəsini vermək və şagirdlərin əqli inkişafına əsaslı təsir göstərmək üçün məhz "inkişafın yaxın zonası"na uyğun təşkil olunmalıdır. Təlimin məzmunu, forma və vasitələrini seçərkən bu,birinci tələb kimi nəzərə alınmalıdır. Təlim fəaliyyətinin səmərəliliyinin təmin edilməsi üçün şagirdlərin mənimsəmə imkanlarının aşkara çıxarılması da zəruridir.

Şagirdlərin mənimsəmə imkanlarının aşkara çıxarılmasında senzitiv dövrlər haqqında məlumatların toplanması əhəmiyyətli hesab olunur. Uşağın inkişafının ayrı-ayrı mərhələlərində psixikanın bu və ya digər istiqamətdə inkişafı üçün daha əlverişli şərait yaradılır. Bu cür yaş dövrləri bu, yaxud digər psixi xüsusiyyət və keyfiyyətin inkişafı üçün nisbətən optimal olarsa, onda həmin dövrləri senzitiv dövrlər adlandıra bilərik. Məsələn, nitqin inkişafı üçün bir yaşdan beş yaşa qədər olan dövr və riyazi qabiliyyətlərin formalaşdırılması üçün 15-20 yaş senzitiv dövr hesab olunur.

Psixi inkişafın senzitiv dövrlərinin əhəmiyyətini qeyd edərək L.S.Vıqotski yazırdı: "Bu dövrdə hissi həssaslıq inkişafda dərin dəyişikliklər əmələ gətirərək onun bütün gedişinə müəyyən təsir göstərir. Başqa vaxtlarda həmin şərtlər özü tamamilə neytral olar, ya da inkişafın gedişinə əks təsir göstərə bilər. Senzitiv dövrlər bizim təlimin optimal müddətləri adlandırdığımız anlarla tam uyğun gəlir". Ona görə də şagirdlərlə Aktual inkişaf zonası (Uşaq nəyi bacarır?) və Yaxın inkişaf zonası (Uşaq bir müddət sonra nəyi bacarmalıdır?) aparılan təlim işinin onların psixi inkişafının "Senzitiv" dövrlərinə uyğunlaşdırılması təlim prosesinin optimallaşdırılmağının mühüm şərtlərindən biridir.

**SİMŞ üçün fərdi təlim planı (FTP)**

SİM hər bir uşağın fərdi təlim planı (FTP) olmalıdır. Yuxarıda qeyd olunan xüsusiyyətlər nəzərə alınaraq hər bir uşağa fərdi plan tərtib olunur. FTP SİM hər bir uşaq üçün yazılan, hər il yenilənən, təhlil edilən, lazım olduqda dəyişdirilə bilən məlumat deməkdir. FTP sənədi uşağın ehtiyacı olduğu təhsili və müvafiq xidmətlərin alınmasına imkan verilməsi haqqında yazılı formanı tərtib edir.

FTP idarəetmə alətidir. FTP uşağın xüsusi öyrənmə ehtiyaclarına bilmək və hər bir uşağın təhsil və müvafiq xidmətlərinin olmasının təmin edilməsi məqsədilə istifadə olunur.

Tədris ilinin əvvəlində, təqribən bir ay müddətində aparılan qiymətləndirmə başa çatdırıldıqdan sonra tərbiyəçi-müəllim, köməkçi, valideyn və mütəxəssislərdən ibarət komandanın qarşısında duran əsas məsələ SİM şagirdlərin ehtiyaclarının müəyyənləşdirilməsi və onlar üçün FTP-nin işlənib hazırlanmasıdır.

Fərdi təlim planı ilə bağlı əsas müddəalar aşağıdakılardır:

- FTP-nin hazırlanması zamanı qərarlar qəbul edilərkən ailə başlıca rol oynayır. Onlar komandanın bir üzvüdür və birgə qərarlar qəbul edirlər;
- Uşaqlarla işin təşkilində FTP tərbiyəçi-müəllim, valideyn və mütəxəssislər üçün yol xəritəsi rolunu oynayır;
- FTP-nin işlənib hazırlanması uzun sürən prosesdir. Onun üzərində işin başa çatdırılması üçün komanda üzvlərinin bir neçə görüşü tələb olunur;
- FTP eksperimental sənəd və yoxlanılması tələb olunan plandır. Həyata keçirildiyi zaman uşaqların inkişafı ilə bağlı bəzi hallarda bu planda dəyişikliklər edilə bilər.

Fərdi təlim planı aşağıdakı komponentlərdən ibarətdir:

- Uşaq haqqında məlumat (soyadı, adı, yaşı və ünvanı) və komanda üzvlərinin siyahısı;
- Uşağın bilik və bacarıq səviyyəsi- uşağın qiymətləndirmə zamanı toplanmış məlumata əsaslanan inkişaf səviyyəsi haqqında məlumat;
- Məqsəd və vəzifələr**-** komanda üzvləri tərəfindən müəyyən edilmiş və əsas bacarıq və davranışların mənimsənilməsində uşağa kömək edəcək məqsəd və vəzifələr;
- Xüsusi və əlavə xidmətlər- bu bölmədə uşağa göstəriləcək xüsusi xidmətlərin siyahısı verilir. Əgər lazımi xidmətlər uşaq bağçasında göstərilə bilməzsə, onda valideynlərə müvafiq mütəxəssislərin yanına getmələri tövsiyə olunur;
- Qrup mühitinin uyğunlaşdırılması və işin təşkili- bu bölmədə SİM uşağın adi qrupda təlim və tərbiyə almasına yardım edəcək uyğunlaşdırmalar (məs: uşağın gözü zəifdirsə, onda iri və vizual olan materiallardan istifadə etmək lazımdır) və işin təşkilində edilən dəyişikliklər təsvir olunur;
- Fəaliyyət müddəti**:** bura planın ümumi fəaliyyət müddəti və ayrı-ayrı xidmətlərin təqdimedilmə müddəti haqqında məlumat daxil edilir;
- Uşağın uğurları haqqında məlumat- cari qiymətləndirmə və uşağın uğurlarının monitorinqi FTP-nin tərkib hissəsidir. İnformasiyanın əldə olunması üçün müşahidə, portfolio, nəzarət kartları, uşağın əl işləri və davranışın təsvir olunduğu

qeydlər və digər üsullardan istifadə edilə bilər.

FTP-nin uşaq üçün zəruri olduğu qərarlaşdırıldığında aşağıdakı addımların qismən və ya tamamilə icra edilməsi zəruridir:

- Müəllim (qrup tərbiyəçisi) tərəfindən aparılan sistemli qiymətləndirmə;
- Müəllim (qrup tərbiyəçisi) və mütəxəssislər arasında məsləhətləşmələr;
- Alternativ strategiyalar, onların təsirinin qiymətləndirilməsi ilə tanışlıq;
- Xüsusi dəyərləndirmənin keçirilməsi üçün müəssisə heyətinə yönəltmə.

Uşağın xüsusi ehtiyaclarının olduğu müəyyənləşdirildikdən sonra onun tədris ehtiyaclarının planlaşdırılması məqsədilə FTP komandası yaradılır.

**FTP komandası**

Fərdi təlim planı komandasının üzvləri hər bir uşağın spesifik təhsil tələbindən asılı olaraq formalaşır. Qrupun iştirakçıları aşağıdakı tərkibdə ola bilər:

- Müəllim (qrup tərbiyəçisi);
- SİMŞ valideynləri və ya hüquqi himayədarları;
- Fərdi təlim planının hazırlanmasına cəlb edilən digər mütəxəssislər (psixoloq, loqoped, korreksiyaedici pedaqoq, metodist, sosial işçi və s.);
- Müəllim köməkçisi;
- Zəruri olduqda, SİM uşağın özü;
- Məktəbin (məktəbəqədər təhsil müəssisəsi) nümayəndəsi (müdir və digər səlahiyyətli şəxs).

Planın hazırlanması və yerinə yetirilməsi işinin koordinasiya edilməsi üçün FTP əlaqələndiricisi təyin olunur. Uşağın ciddi ehtiyacları olduqda məqsədlərin vahidliyi, müdaxilələrin müvafiqliyi və xidmətin göstərilməsinə kompleks yanaşmanın təmin edilməsi üçün bir sıra mütəxəssislərin FTP komandasına daxil olunması vacibdir.

FTP komandası üzvlərinin rolu aşağıdakılardan ibarətdir:

- SİM uşağın valideyni: FTP-nin hazırlanmasında təhsil məqsədlərinin müəyyənləşdirilməsinə yardım etmək üçün dəvət olunur;
- Uşağın daimi tərbiyəçisi-uşağın yaşına uyğun tədris proqramını izah edir, müəyyən müddət ərzində olan gözləntiləri müəyyənləşdirir;
- Müəllim (tərbiyəçi) köməkçisi-uşağa fərdi məqsəd və vəzifələrinə çatmaqda yardım göstərir;
- Loqoped- itqi qüsurlu uşaqlarla işləyir;
- Psixoloq-uşağın emosional davranışı və intellektual səviyyəsi haqqında məlumat verir;
- Bağça müdiri (digər səlahiyyətli şəxs)- ümumi tədris planı haqqında biliyə malik olur, uşaqların xüsusi ehtiyaclarına cavab vermək üçün xüsusi təlimatlar hazırlayır və onların icrasına nəzarət edir.

FTP üzrə həyata keçirilən proseslər bir çoxları üçün yeni olduğundan, valideynlərə

izah edilməsi tələb olunan prosesdir. Valideynlər uşaqlarının təhsili ilə bağlı qərarların verilməsinə fəal şəkildə cəlb olunmaq üçün dəstəklənməlidirlər. Onlar uşaqların inkişafı, onların şəxsiyyətinin formalaşması və təlimində əvəzsiz tərəqqini təmin etməlidirlər. Ailə və təhsil müəssisəsi arasında yaranan ünsiyyət və qarşılıqlı əlaqələr SİMŞ-lərin uğur əldə etmək imkanlarını artırır.

**FTP-nin hazırlanması**

FTP uşağın təlimində dəyişikliklərin edilməsi və vərdişlərin yaradılmasına xidmət edəntəlimatdır. Bu plan, FTPqrupunun cari və gələcək üzvlərinin hər biri üçün anlaşıqlı formada tərtib olunmalıdır. FTP-yə daxildir:

- Uşağın mövcud bilik və bacarıqları haqqında məlumat;
- Uşağın müvafiq tibbi, sosial və təhsil mənşəyi haqqındaəsas məlumatlar;
- Dəyişikliklər və ya vərdişlərin tələb olunduğu sahələr haqqında təhlil;
- Yeni vərdişləri öyrənmənin metodları;
- Fiziki, idraki və sosial-emosional sahələrin biri və ya bir neçəsi üzrə uyğun müəyyən edilmiş məqsədlər;
- Təlim mühitinə dair tələblər;
- Tədris müddəti və müəllim haqqında məlumat;
- FTP-nin monitorinq planı (ildə minimum iki dəfə).

**Uşağın hazırki inkişaf səviyyəsinin göstəriciləri**

FTP-da müəyyənləşdirmə prosesində əldə olunan məlumatlar əsasında yaradılan şagirdin hazırki təlim səviyyəsi göstərilir, o nə edə bildiyi, o cümlədən, onun səyləri və öyrənmə üslubunun nədən ibarət olduğu təsvir edilir. Şagirdin hazırda nəyi edə bilməməsi, yaxud hansısa sahələrdə yardıma ehtiyacı olması haqqında hesabatlar onun imkanlarını aşkara çıxarır. Şagirdin probleminin cari tədris prosesində uğur qazanmasına göstərdiyi mənfi təsir də bura daxil edilməli və onun mövcud inkişaf səviyyəsinin təsviri mümkün qədər dəqiq olmalıdır.

SİM uşağın ehtiyacları müəyyənləşdirildikdən sonra FTP komandası bu ehtiyaclara uyğun məqsəd və vəzifələrin müəyyən edilməsi üzərində işləməyə başlayır. Uzun müddətli (illik) məqsəd bir il ərzində uşaqdan olan gözləntiləri əhatə edir. Qısamüddətli məqsəd uşağın illik məqsədə nail olunmasına kömək edən addım hesab olunur. Başqa sözlə, illik məqsəd sizin getmək istədiyiniz məntəqəni göstərirsə, qısamüddətli vəzifə bu məntəqəyə yetişməniz üçün gedəcəyiniz yola bənzəyir. FTP-nin illik məqsəd və qısamüddətli vəzifələr bölməsi təhsillə bağlı mövcud səviyyə əsasında hazırlanır. Hazırkı səviyyə uşağın ehtiyaclarını müəyyənləşdirir. Ehtiyacların ödənməsi üçün məqsəd və vəzifələr yazılmalıdır.

Məqsəd və vəzifələrin müəyyən edilməsi FTP-nin ən çətin hissəsi sayıla bilər. Bunun əsas səbəbi məqsəd və vəzifələrin müxtəlif sahələri əhatə etməsidir. Uşağın sərbəst şəkildə yemək yeməsi və ya nəqliyyat vasitələrindən istifadə etməsi kimi vərdişlərin öyrənilməsi buna misal ola bilər. Məqsəd və vəzifələr sosial və emosional ehtiyaclarla da bağlı ola bilər. Uşağın sosial və emosional ehtiyaclarının təmin edilməsi üçün məqsəd və vəzifələr FTP-də

yazılmalıdır. İllik məqsəd və vəzifələr tərtib olunarkən aşağıdakılar nəzərə alınmalıdır:

- Müsbət ifadə olunmalıdır;
- Müşahidə və qiymətləndirilmə ola biləcək bacarıqar əks etdirilməlidir.

İllik məqsəd və vəzifələr aşağıdakı suallara cavab verməlidir:

- "Kim nail olacaq?"
- "Nəyə nail olacaq?"
- "Necə nail olacaq?."
- "Harada nail olacaq?" və "hansı şərtlər daxilində?"
- "Nə zaman nail olacaq?"(son tarix).

Məqsədlər bir il müddətinə müəyyən edilir, vəzifələr isə 3-6 ay müddətində yerinə yetirilməlidir. Məqsədlər tərtib olunarkən təsdiq cümlələrdən istifadə olunur. Uşaqlar üçün nəzərdə tutulmuş məqsəd və vəzifələr bütün inkişaf sahələrini əhatə etməlidir. Hər bir vəzifə üç hissədən ibarət olmalıdır:

1. Davranış. SİMŞ-in hansı davranışın gözlənildiyi və ya onun hansı bacarıqları mənimsəməli olduğu müəyyən edilir;
2. Şərt. SİMŞ nə zaman, hansı şərtlər daxilində və hansı şəraitdə arzu olunan davranışın nümayiş etdiriləcəyi və ya zəruri bacarıq və vərdişlərin mənimsəniləcəyi müəyyən edilir;
3. Meyarlar. SİMŞ-in davranış modeli və bu və ya digər bacarığı nə dərəcədə yaxşı mənimsəməli olduğu müəyyən edilir.

**Fərdi təlim planının (FTP) strukturu**

İnklüziv təhsil prosesinə cəlb olunan şagirdlərlə FTP üzrə işləmə ardıcıllığı aşağıdakı (Cədvəl 1.1) cədvəldə göstərilib:

| № | Görüləcək işlər | Tarix |
|---|---|---|
| 1. | Uşağın vaildeyni və ya hüquqi himayadarı məktəbə müraciət edir. | İyul-avqust |
| 2. | Uşağın vaildeyni və ya hüquqi himayadarı bütün sənədləri, epikriz sənədi və ya uşaq dispanserindən verilən arayış ilə birlikdə yaşadığı ərazidə fəaliyyət göstərən Psixoloji-Tibbi-Pedaqoji Komissiyaya müraciət edir. | "-------------------" |
| 3. | Psixoloji-Tibbi-Pedaqoji Komissiyanın müsbət rəyi əsasında inklüziv komponentli məktəbə qəbul edilir. | "-------------------" |
| 4. | İnklüziv komponentli sinifdə təhsil alan şagird sinif mühitində müşahidə olunur və mütəxəssislər, valideynlər və şagirdlə işləyən müəllimlər tərəfindən qiymətləndirilir (xüsusi qiymətləndirmə meyarlara uyğun) | sentyabr - oktyabr |

| № | Görüləcək işlər | Tarix |
|---|---|---|
| 5. | Tədris proqramına uyğun olaraq uşağın qiymətləndirilməsinin minimum həddi əsas götürülərək ona FTP tərtib olunur. | Sentyabr-oktyabr |
| 6. | Təhsil xidmətləri yerinə yetirilir və bura təlim və xüsusi xidmətlər daxildir. | Oktyabr-yanvar |
| 7. | Şagirdin nailiyyəti qiymətləndirilir və nailiyyətlər və geriləmələr barədə valideyn və şagirdlə işləyən digər mütəxəssislər məlumatlandırılır. | Dekabr-yanvar |
| 8. | Şagirdin yarımillik qiymətləndirilməsinin nəticəsi olaraq FTP yenidən nəzərdən keçirilir və əlavə və dəyişikliklər edilir. | Yanvar |
| 9. | Təhsil xidmətləri yerinə yetirilir, bura təlim və xüsusi xidmətlər daxildir. | Yanvar-may |
| 10. | İlin sonunda qarşıya qoyulan məqsədlər əsasında şagirdin təlim proqramını necə mənimsəməsi və digər inkişaf sahələrinə görə hansı uğurlar və çətinliklərin olması üzrə ilin sonunda b r daha qiymətləndirmə aparılır. | May |

**Cədvəl 1.1. İnklüziv təhsil prosesinə cəlb olunan şagirdlərlə FTP üzrə işləmə ardıcıllığı**

Cədvəldə qeyd etdiyimiz ardıcıllığı həyata keçirmənin nəticəsi olaraq FTP tərtib olunur və il boyu şagirdin nailiyyətləri izlənilir.

Müxtəlif qrup şagirdlər üçün dərslərin planlaşdırılması elə aparılmalıdır ki, məqsəd və vəzifələr sinifdəki uşaqların qabiliyyətlərini əks etdirməklə yanaşı, bütün şagirdlərin məşğələlərdə iştirakına imkan yaratsın.

Təlim proqramının məqsədlərinin təhlil edilməsi ilə yanaşı, SİM olan uşaqlar üçün tapşırıqlar hazırlanarkən müəllim aşağıdakıları yerinə yetirməlidir:

- Tapşırığı təhlil etmək;
- Uşaqların verilmiş tapşırığı yerinə yetirə bilmələri üçün hansı bacarığa malik olmalarını qeyd etmək;
- Proqramı uşağın xeyrinə dəyişmək.

**Fərdi plan nümunəsi**

Soyadı, Adı
Təhsili
Telefon
İmza:/ /Müəllim

Valideyn/himayədar və s.
Məktəbin nümayəndəsi (direktor və tədris hissə müdiri)
Psixoloq
Şagirdin adı: Planın tərtib edildiyi tarix:

**Şagird haqqında məlumat**

Təvəllüd:__________________

Yaş:________________________

Cinsi:_____________________

Məktəb:__________________________________________________ Sinif:__________

Valideynlər:______________________________________________________________________________________________

Əlaqə telefonu və ünvanı:__________________________________________________________________________________

____________________________________________________________________________________________________

Diaqnoz və əsas çətinlikləri (sensor və fiziki, sosial-emosional və koqnitiv):__________________________________

____________________________________________________________________________________________________

____________________________________________________________________________________________________

____________________________________________________________________________________________________

- İdrak, kommunikativ və yaradıcılıq aspektləri üzrə inkişaf səviyyəsini təsvir edin (riyaziyyat, savad təlimi, sadə məntiqi və tapşırıqla bağlı suallar verir, özünü və başqalarını qiymətləndirir və s.)

  İlin əvvəlində______________________________________________________________________________________

  _____________________________________________________________________________________________________

  İlin sonunda________________________________________________________________________________________

  _____________________________________________________________________________________________________

- Sosial-emosional və özünəxidmət vərdişlərinin inkişafını təsvir edin (uşağın bağça mühitinə adaptasiyası, yaşıdları ilə ünsiyyəti, başqalarından asılı olub-olmaması, emosional durumu, həyat bacarıqları, özünəqulluq etmə bacarığı, təmizliyə riayət etmə və s.).

  İlin əvvəlində______________________________________________________________________________________

  _____________________________________________________________________________________________________

  İlin sonunda________________________________________________________________________________________

  _____________________________________________________________________________________________________

- Uşağın fiziki inkişafını təsvir edin (iri və xırda motorikası inkişaf edib sərbəst hərəkət edir, bütün fəaliyyətlərdə iştirak edir və hərəkətdə göstərişlərə riyaət edir).

  İlin əvvəlində______________________________________________________________________________________

  _____________________________________________________________________________________________________

  İlin sonunda________________________________________________________________________________________

  _____________________________________________________________________________________________________

  İllik məqsədlər və qısamüddətli vəzifələr_____________________________________________________________

  _____________________________________________________________________________________________________

  _____________________________________________________________________________________________________

## Tələbələr üçün fəaliyyətlər

1. Materialı izah etməmişdən əvvəl tələbələrlə SİMŞ-in psixo-pedaqoji özünəməxsusluqları barədə müzakirə aparın.
2. İdrak, kommunikativ və yaradıcılıq imkanlarının müəyyən edilməsi üçün tapşırıqlar hazırlayın.
3. Sosial-emosional və özünəxidmət vərdişlərinin inkişafının müəyyən edilməsi üçün tapşırıqlar hazırlayın.
4. Uşağın fiziki inkişafının (xırda və böyük motorika) müəyyən edilməsi üçün tapşırıqlar hazırlayın.
5. Tələbələri bir neçə qrupa bölüb FTP-nin komandasının üzvləri və onların rollarını qruplarda müzakirə edib nəticələri təqdim edin.



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Şəxsin sosial və psixoloji-pedaqoji vəziyyəti ilə bağlı fərdi iş planı hazırlayır”.**

1. FTP-nın əsas mahiyyəti nədir? Fikrinizi əsaslandırın.
2. Uşağın FTP-nı hazırlayarkən onun hansı psixo-pedaqoji xüsusiyyətləri nəzərə alınmalıdır?
3. FTP-nın müddəalarını sadalayın.
4. FTP-nın strukturunu izah edin.
5. FTP-nın struktutu hansı komponetlərdən ibarətdir? Komponentləri izah edin.
6. Qrup iştirakçılarının tərkibi kimlərdən ibarət ola bilər? Sadalayın.
7. FTP komandası üzvlərinin rolunu təhlil edin.

## 1.2. Şəxsin idrak imkanlarına uyğun olaraq onun təhsil aldığı müəssisənin təhsil standartlarından (proqramlarından) istifadə edir

İnklüziv təhsilə cəlb olunmuş SİMŞ-lər qrupun digər üzvləri ilə birgə eyni dərs vəsaitlərindən istifadə etməlidirlər. Şəxsin idrak imkanlarına uyğun olaraq onun təhsil aldığı müəssisənin proqramlarından istifadəsi nəzərdə tutulur. SİMŞ üçün hec bir ayrı dərsliklər və iş dəftərləri nəzərdə tutulmur. Lakin hər bir uşaq inklüziyanın prinsipinə uyğun və fərdi şəkildə qiymətləndirilməlidir.

**SİMŞ üçün diferensial təlim strategiyalarının müəyyənləşdirilməsi və təlimin təşkili**

Diferensial təlim məzmunu müxtəlif öyrənmə və düşüncə tərzinə malik olan uşaqlara öyrətmə və mənimsəmənin təmin edilməsi üçün tətbiq olunan təlim metodlarından ibarətdir.

Diferensial təlim proses kimi başa düşülməlidir. Təlimin diferensiallaşdırılması prosesinə başlamamışdan əvvəl təlim prosesinin özünə nəzər salmaq məqsədəuyğundur. Məlum olduğu kimi, təlim prosesi bir-biri ilə sıx əlaqədə olan dörd əsas aspektdən ibarətdir:

- Məzmun və gözlənilən nəticələr (standartlar);
- Uşaqların ilkin bilik və bacarıqları, inkişaf səviyyəsi, xüsusi ehtiyacları;
- Təlim metodları, tapşırıqlar, əlavə materiallar, əyani vəsaitlər, öyrənmənin möhkəmləndirilməsi üçün ev tapşırıqları və çalışmalar;
- Tətbiq olunan qiymətləndirmənin növləri.

Təlimin diferensiallaşdırılması haqqında düşünən mütəxəssis mütləq təlim prosesinin komponentlərinin diferensiallaşdırılması barədə düşünməlidir. Təlim prosesinin komponentləri aşağıdakılardır:

**Diferensial təlimin mahiyyəti**

Xüsusi qayğı və təhsilə ehtiyacı olan uşaqlar uşaq bağçasını bitirəndə təhsillərini ümum təhsil səviyyəsində davam etdirmək və ya hər hansı bir işlə məşğul olmaq üçün tam hazır olmurlar. Tipik inkişaf etmiş uşaqlardan fərqli olaraq xüsusi təhsil ehtiyacları olan uşaqlar bilik və bacarıqlarını nümayiş etdirməkdə tez-tez çətinliklər çəkir, bu isə yuxarıda qeyd olunmuş problemlərə səbəb olur.

SİM uşaqlar hər hansı bir məsələ üzərində çalışarkən bu məsələnin öyrənmə və tətbiq etmə yollarının müxtəlifliyini və müəyyən dərəcədə təkrarlanmasını tələb edirlər. Bəzən, hətta, cüzi fərq onların öyrənmələrinin ləngiməsinə səbəb ola bilər. Ona görə hər hansı məsələ və ya mövzunun öyrədilməsi məqsədilə nə qədər fərqli şərait yaradılırsa, onlar üçün bu, vərdişlərinin daha da genişləndirilməsi və bacardıqlarının tətbiq edilməsinin möhkəmləndirilməsinə bir o qədər yardımçı olur.

Təlimdə uyğunlaşdırma və dəyişikliklər aşağıdakı məqsədlərə xidmət edir:

- FTP-də nəzərdə tutulan illik məqsədlərə nail olunmasına;
- Kurikulum materialının mənimsənilməsinə, uşaqların uğur qazanmasına;
- Uşaqların digər uşaqlarla birgə məşğələlərdə iştirak etməsinə.

Beləliklə, tərbiyəçinin yüksək təlimi diferensiallaşdırılma bacarıqlarının olması uşaqların uğur əldə etmələrinə mühüm təsir edir.

Səmərəli uyğunlaşdırma və dəyişiklikləri həyata keçirmək0üçün tərbiyəçi ilk növbədəuşaqların uğur (irəliləyiş) göstəricilərinin meyarlarını müəyyən edəcək tapşırıqları təhlil etməlidir. Planlaşdırmada iki mərhələ nəzərdən keçirilir:

- Tədris proqramı üzrə nəzərdə tutulmuş məqsəd və vəzifələrin verilmiş şəraitə uyğunluğunun müəyyənləşdirilməsi;
- Təlim metodlarının uyğunluğunun müəyyənləşdirilməsi.

**İnklüziv sinfin təşkili**

Sinifdəki şagirdlərin bərabər səviyyədə (yalnız tipik, yalnız SİM, yalnız əlaçı, orta və ya zəif) olması tənqidi düşüncənin, özünə nəzarət və özünü qiymətləndirmənin zəif inkişaf ilə nəticələnir. Bu baxımdan sinfin tərkibi (strukturu) müxtəlif səviyyədə olur. Sinifdə SİM olan uşaqlara tipik uşaqların iştirakı lazım olduğu qədər, tipik uşaqlara da SİM olan uşaqların iştirakı vacibdir. Bu cür siniflərdə təhsil alan uşaqlarda ciddi inkişaf geriliyinin korreksiya edilməsi mümkündür. İnklüziv siniflərin təşkili zamanı şagirdlər dünyanın rəngarəng, insanların isə fərqli olması fikrinə alışırlar. Məktəbdə sinif əsas struktur elementi sayılır. İlk kollektivlər sinifdə yaranır və müvafiq emosional mühit burada formalaşdırılır.

İnklüziv sinfin təşkilinin vacib amillərindən biri müəllimin xüsusi bacarıqlara malik olması, valideynlərlə birgə əməkdaşlıq etməsi və məsləhətləşməsidir.

Sinfin təşkili zamanı müəllimin vəzifələri aşağıdakılardır:

- Şagirdlər üçün sinifdə emosional baxımdan təhlükəsiz mühitin yaradılması;
- Şagirdlərin dərs prosesinə cəlb edilməsi məqsədi ilə müxtəlif metodların istifadəsi;
- Qarşılıqlı hörmət və anlaşmanın təmin edilməsi;
- İdman dəqiqələrinin təşkili;
- SİM olan şagirdlərin dərs prosesinə hazırlanması. (9)

**İnklüziv sinifdə dərsin təşkili**

İnklüziv siniflərdə dərslərin planlaşdırılması və təşkili aşağıdakı pedaqoji prinsiplərlə əsaslandırılır:

- Pedaqoji optimizm prinsipi (bütün şagirdlərin öyrənə biləcəyinə inandırılması) L.S.Vıqotskinin fərdi inkişaf proqramının başlanğıcı, gedişi və nəticəsinin proqnozlaşdırılmasına imkan verən "Yaxın inkişaf zonası" ideyasına əsaslandırılır;
- Diferensial və fərdi yanaşma prinsipi şagirdin fərdi və inkişaf pozulmasının spesifik xüsusiyyətlərinin nəzərə alınaraq münasib təlim şərtlərinin yaradılmasına hədəfləndirilir;
- Erkən pedaqoji yardım prinsipi şagirdlərə uğurlu korreksiyaedici-pedaqoji yardımın əsas şərtlərindən biri olmaqla, şagirdin fərdi təhsil ehtiyaclarının müəyyənləşdirilməsi üçün inkişafdakı ləngimələrin erkən təzahürlərinin aşkarlanması və diaqnostikasına fədəflənir;
- Təlimin sosial-adaptasiyaedici prinsipi sosial bacarıqlar və şagirdin ətraf sosial-

mədəni mühitə psixoloji hazırlığının müxtəlif strukturlarının müəyyənləşdirilməsinə imkan verir;

- Təfəkkür, dil və ünsiyyətin xüsusi təlim vasitəsi kimi inkişafı prinsipi. SİM olan şagirdlərdə nitq, təfəkkür və ünsiyyətin inkişafında xüsusi problemlər var. SİM olan şagirdlər üçün ümumi təhsil ehtiyacı nitq, təfəkkür və ünsiyyətin inkişafı üçün korreksiyaedici-pedaqoji köməyin göstərilməsidir;
- Xüsusi pedaqoji rəhbərliyin vacibliyi prinsipi. SİM olan şagirdlərin öyrənmə və idraki fəaliyyəti müəllimlərin rəhbərliyini tələb edir. Dərslər şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun planlaşdırılır. (9. Səhifə 36-37)

Dərsin uyğun hissələrində SİM olan uşaqlara yeni mövzu fərdi şəkildə izah oluna bilər. Yük dərsin ortasına doğru tədricən artırılır. Dərsin ikinci yarısında şagirdlərin imkanlarına uyğun müxtəlif növ çalışmalar bir-birini əvəzləyir. Dərs elə qurulur ki, sinifdə öyrənmə, müzakirə, düşünmə və fəaliyyət üçün müvafiq qüvvə və zaman sərf edilmiş olsun. Dərs aydın alqoritmə malik olmalıdır. Müəyyən alqoritmə vərdiş edən şagirdlər daha intizamlı olur.

Dərs bir-biri ilə metodik şəkildə bağlı olan üç hissəyə ayrılır:

1. Giriş hissə düşünməyə yönəltməlidir. Bu mərhələnin əhəmiyyəti şagirdlərin fəallaşdırılması və hamının aktiv iştirakını təmin etməsindən ibarətdir. Proqramda göstərilmiş mövzu əsasında dərs başlanır. Motivasiya illüstrasiyalar, şəkillər, sxemlər, rəmzlər əsasında təşkil olunur və düşünmə sualının qoyuluşu ilə tamamlanır. SİM olan şagirdlərin qavrama və anlama xüsusiyyətləri nəzərə alınaraq tədqiqat sualının alternativ variantı hazırlanır;
2. Əsas hissə təfəkkürün inkişafı mərhələsi ilə davam etdirilir. Şagirdlər yeni materialın mahiyyətinin dərk edilməsinə yönəldirilir, yeni biliklə əvvəl qazanılmış bilik arasında əlaqə yaradılır. Müstəqil öyrənmə prosesi müəllimin izahı, şagirdlərin dərslik və ya mənbələrlə işi əsasında qurulur. Müxtəlif iş formalarından istifadə olunaraq konkret tapşırıqlar verilir. Təqdimatlardan sonra ümümi diskussiya aparılır. SİM olan uşaqlar üçün mahiyyətcə eyni, lakin sadələşdirilmiş tapşırıqlar verilir, onların xüsusiyyətləri nəzərə alınaraq, təqdimatlar ümumi siniflə və ya fərdi şəkildə dinlənilir. SİM olan şagirdlərlə iş zamanı müxtəlif fəaliyyətlər bir-birini əvəzləyir. Müəllim öz izahı ilə prosesi istiqamətləndirir, lakin nitqlə çatdırılan informasiya minimum həddə olur;
3. Yekun hissə düşünmə mərhələsidir. Bu zaman şagirdlər rast gəldikləri fakt və hadisələri yada salır, suallar verir, müşahidə və fikir mübadiləsi aparır, həmin fikri daha geniş şəkildə izah eməyə çalışırlar. Biliklər yaddaşda möhkəmləndirilir. Bir və ya iki şagird tapşırığı sinif qarşısında təqdim edir. Yekunda SİM olan şagirdlərin yeni mövzu ilə bağlı fərdi tapşırıqları yerinə yetirdiyi zaman, müəllim digər şagirdlərin ev tapşırıqlarını yoxlayır. (9. Səhifə 37)

İnklüziv sinifdə dərsin gedişatının mərhələləri:

- Yeni materialın mərhələli izahı;

- Tapşırıq təlimatının şagird tərəfindən təkrarlanması;
- Təlimin audio-vizual təminatı;
- Təlim nailiyyətinin qiymətləndirilməsi.

**Diferensiallaşdırmanın təqdimi**

Bütün uşaqlar üçün əsas sinif strategiyaları:

- Dərsin açıq planı hazırlanmalıdır, başlanğıcda toxunulacaq mövzulara dair məşğələlər planlaşdırılmalı və sonda həyata keçiriləcək təlim nəzərdən keçirilməlidir;
- Çərçivə kimi UTD-dən (universal təlim dizaynı) istifadə oluna bilər: dərsin əsas təlim maddələrinin vizual, eşitmə və mümkün olduğu təqdirdə toxunuş (hiss etmə) vasitəsilə təqdim olunmasına əmin olmaq lazımdır;
- Çevik olmaq, yeni öyrənmə bacarıqları və nəticələrinin araşdırılması üçün müxtəlif məşğələlər təklif etmək lazımdır;
- Dərsin əvvəlində uşaqlara öyrənəcəkləri mövzunun izah edilməsi lazımdır (təlimdə çətinlikləri olan uşaqlar daha sadə və təkrar izahata ehtiyac duya bilərlər);
- Pozitiv və mehriban olmaq, sinifdəki bütün uşaqlara hörmət və sevgi göstərmək lazımdır;
- Uşaqların ünsiyyət qurduğu ,bir-birilərinə kömək edəcəkləri mühit yaradılaraq ünsiyyət ve əməkdaşlıq mədəniyyətinin təşviq edilməsi lazımdır;
- Dərs müddətində uşaqlar ilə qarşılıqlı münasibət qurulmalıdır:
  - Həvəsləndimək və tərifləmək lazımdır;
  - Müəllim dərs boyunca başa düşüldüyünə əmin olmalıdır.
- Ardıcıl olmaq lazımdır – müəllim müxtəlif uşaqlardan nə gözlədiyinə dair açıq olmalıdır – məsələn, bəzilərindən 20 riyazi hesablama, digərlərindən isə daha az hesablama işini bitirməsini gözləməlidir;
- Əsas anlayışlardan istifadə edilməli, uşaqlar istənildiyi kimi tez başa düşülmədikdə səbirli olunmalıdır. Tapşırıqlara başlanmazdan əvvəl məlumatlar və izahatların təkrar edilməsi lazımdır;
- Təlimə fokuslanmaq, hər kəsdən sinifdə çox çalışmaları və dərsdə öyrənmələrini gözlənildiyinin açıq izah edilməsi lazımdır;
- Əlilliyi olan uşaqların çətinlik çəkən digər şagirdlər ilə qruplaşdırılmadığına əmin olunması lazımdır. Onlar kömək və dəstək göstərə biləcək uşaqlarla birlikdə qruplaşdırılmalıdır;
- Çalışmanın bitirməsi üçün daha çox vaxta ehtiyacı olan uşaqlara vaxt verilməlidir;
- Əsas sınaqlar zamanı lazım olduqda sualların başa düşülməsi və cavabların yazılmasında əlilliyi olan uşaqlara kömək edilməlidir (burada yuxarı sinif şagirdi və ya xüsusi olaraq təyin edilmiş tədris köməkçisindən istifadə oluna bilər).

**Eşitmə məhdudiyyəti olan uşaqlar üçün əsas sinif strategiyaları və adaptasiya:**

- Eşitmə məhdudiyyəti olan uşaqların lövhədə yazılanı daha asan görə bilmələri üçün onlar sinif otağında qabaqda oturdulmalıdırlar;
- Oxumada çətinliyi olan uşaqların məlumatı daha yaxşı mənimsəmələri məqsədilə vizual vasitələrdən istifadə olunmalıdır. Danışılarkən həmin uşaqların danışanın dodaqlarını gördüklərinə əmin olunmalıdırlar ki, dodaqların oxunması ilə müzakirələ qoşula bilsinlər – müəllim üzü yazı lövhəsinə tərəf olduqda danışmamalıdır;
- Arxa fondakı səslər azaldılmalıdır. Sinif elə təşkil olunmalıdır ki, bütün qrupun müzakirəsi zamanı eyni anda yalnız bir şagird danışsın;
- Eşitmə məhdudiyyəti olan uşaqların başa düşməsi üçün əyani vasitələrin maksimallaşdırılması üçün otağın yaxşı işıqlandırılması təmin olunmalıdır;
- Ünsiyyət zamanı aparılan məlumatların yazılı şəkildə təqdim edilməsi təmin edilməlidir.
- Sinifdə videolardan istifadə edilərkən alt-yazıların olmasına diqqət edilməlidir;
- Eşitməyən uşaqlar dil məhdudiyyətlərinə malik ola bilər. Anlaşılmayan sözlər və struktur və oxu tapşırıqlarının müzakirə edilməsi lazımdır;
- Qeydlər aparılarkən uşaqlara yaşıdları ilə işləmələrinə icazə verilməlidir;
- Danışmadan əvvəl şagirdlərdən diqqət ayırılması xahiş edilməlidir;
- Məlumat aydın nitqlə və sadə şəkildə təqdim edilməlidir.

**Görmə məhdudiyyəti olan uşaqlar üçün əsas sinif strategiyaları və adaptasiya:**

- Görmə məhdudiyyəti olan uşaqlar yazı lövhəsinə yaxın oturulmalıdır;
- Sinifdə artırılmış kontrasta malik iri çap edilmiş təlim materiallarından istifadə edilməlidir (məsələn, fərdi istifadə, sinif yarlıqları, otaq rəqəmləri və s. üçün çap edilmiş məlumatlandırıcı materiallardan istifadə edilməlidir);
- Lazım olarsa, lentə yazılmış mətnlərdən istifadə edilməlidir. Şagirdlərə qeydlər aparılmaqdansa, onun yerinə dərslər və təlimatların bir hissəsinin lentə alınmasına icazə verilməlidir;
- Oxuma və yazma üçün uşaqlara daha çox vaxt verilməlidir. Tələbələrə tapşırıqların yerinə yetirilməsi üçün daha qalın uca malik marker və ya yazı alətindən istifadə edilməsinə icazə verilməlidir;
- Yazılı təlimat və ya tapşırıq verildikdə materialın qısa şəkildə və böyük hərflər ilə yazıldığına əmin olunması lazımdır. Uşaqlara sinif qeydlərinin nüsxəsi təqdim edilməli və onlara iPad və ya tabletlə qeydlərin aparılmasına icazə verilməlidir;
- Təlimatlar həm şifahi, həm də əyani olaraq təqdim edilməlidir. Hər bir ifadə lövhədə yazıldığı kimi söylənilməlidir;
- Təlimin nümayişi və onun qavranılması ilə əlaqədar müxtəlif fəaliyyətlər təqdim edilməlidir. Görmə məhdudiyyəti olan şagirdlərə tapşırıqlarının daha qısa yazılmış varinatda təqdim edilməsi və ya öyrənildiyinə fərqli vasitə ilə nümayiş

etdirilməsinə icazə verilməlidir;

- Nəzərə alınmalıdır ki, görmədə çətinliyi olmayan sinif yoldaşlarına nisbətən görmə məhdudiyyəti olan uşaqların vizual vasitələrlə tədris alma ehtimalı azdır və həmin vasitələrdən istifadəsi daha az olacaq (məsələn, sinif planının görülməsi, saatda vaxtın yoxlanılması, təlimat materialları və sinif otağının qaydaları və yarlıqları və s. daxil olunmaqla divardakı əyani köməkçi vasitələrin və materialların oxunması). Sinif keçidləri vurğulanmaqla səs vasitələrindən istifadə edilərək və gün ərzində sinfin planına uyğun hərəkət edilməsi kimi sinif şablonlarının çatdırılması üçün əyani olmayan vasitələr təqdim edilməlidir. Sinif şablonlarına riayət edilmələri üçün yaşıdlarından görmə məhdudiyyəti olan uşaqlara yardım edilməsi xahiş edilə bilər;
- Görmə məhdudiyyəti olan uşaqlar təlim yerlərində oriyentasiya və səfərbərlikdə köməyə ehtiyac duyacaqlar. Sinfin planı, kitabxana, yeməkxana və məktəbin digər əsas ərazilərə bələd olunması üçün görmə məhdudiyyəti olan uşaqlara vaxt verilməlidir, belə ki onu əhatə edən mühit ilə tanış olsun və ətrafda hərəkət edərkən inamlı olsunlar. Məktəbin planı və məktəbin fövqaladə hallar üzrə prosedurları görmə məhdudiyyəti olan uşaq üçün aydınlaşdırılmalıdır (məsələn, tualetlər, idman zalı, kitabxana, yeməkxana, təlimat ofisi, oyun meydançası və s.).
- Görmə məhdudiyyəti olan uşaqlar adlar ilə simaları asanlıqla əlqələndirməyə bilərlər, ona görə də həmin uşaqlara öz sinif yoldaşları ilə tanış olmaları üçün vaxt verilməlidir. Məqsədyönlü şəkildə sinif yoldaşları ilə kiçik qruplar və ya fərdi şəkildə tanış ola biləcəkləri fəaliyyət və təcrübələr təşkil edilməlidir.

**SİMŞ-lərlə çalışan müəllimlər üçün məsləhətlər**

Fiziki məhdudiyyəti olan uşaqlarla iş zamanı:

- Sinif və digər məktəb yerləri ətrafında hərəkət edilməsi üçün geniş yer təmin edilməlidir (müdiriyyət tərəfindən düşünülməlidir). Əmin olmaq lazımdır ki, fiziki məhdudiyyəti olan uşaqlarsinfin hər bir sahəsinə, sinifdə yerləşdirilmiş materiallara və təchizatlarına sərbəst şəkildə yanaşa bilirlər;
- Əlilliyi olan uşaqların sinfə daxil olmaları və sinifdən çıxmaları üçün daha çox vaxt tələb oluna biləcəyindən müəllimin planı çevik (adaptasiya olan) olmalıdır;
- Qrup işi və keçidlər üçün sinif ətrafında hərəkət etdirilməsi üçün uşağa kifayət qədər vaxt verilməlidir;
- Uşağın yazma ilə bağlı çətinliyi varsa, onda ona qeydlərin aparılmasında köməkçi ola biləcək tərəfdaş seçilməlidir. Uşağa kompüter, kiçik səsyazan və ya kamera kimi vasitələrlə qeydə alınmasına icazə verilməlidir;
- Uşaq tez yorulursa, onda tapşırığın bitirilməsi üçün əlavə vaxtın verilməsi vacibdir.

Əqli problemləri olan uşaqlarla iş zamanı:

- Təlimatların bir neçə dəfə təkrarlanması lazımdır;
- Böyük tapşırıqlar kiçik parçalara ayrılmalıdır. Eyni anda yalnız bir mərhələnin təlimatları verilməlidir. Aydın seçimlər verilməlidir;

- Fəaliyyətlərdə mümkün olduğu qədər sadə sözlərdən istifadə edilməlidir;
- Dərsin müxtəlif üsullarla təqdim edilməsi lazımdır (əyani, səsli, faktiki nümayiş və təcrübi dərs);
- Yaşıdlarının sinif fəaliyyəti və vəzifələrinin başa düşülməsi və tamamlanması üçün əqli promlemləri olan uşaqlara kömək edə biləcəkləri şəkildə bir dost sistemi yaratmaq olar;
- Dərsin əyani təqdimatı keçirilməli və iri mətnlərdən ibarət materiallardan istifadə edilməlidir;
- Şifahi verilən təlimatlar vasitəsilə yazılı təlimatların möhkəmləndirilməsi lazımdır.

Ünsiyyət və inteqrasiya problemləri olan uşaqlarla iş zamanı (bura əqli problemləri, nitq və dil çətinlikləri olan və autizmli uşaqlar daxildir):

- Deyim və sarkazmdan istifadə edilmədən birbaşa və konkret dildə danışılması lazımdır. Təbii olaraq, "çöldə hava necə də gözəldir. Yazınızı bitirən kimi kitablarınızı bağlayın və qapının önündə sıraya düzülün. Bu gün bitkilərin öyrənilməsi üçün açıq havaya çıxırıq" yerinə "Qələmləri yerə qoyun, dəftərlərinizi bağlayın və çölə çıxmaq üçün sıraya düzülün" söyləmək məqsədəuyğun deyil;
- Gündəlik nizam-intizam qaydaları tərtib edilməli, günün təşkilinin aydın sturukturu olmalıdır;
- Keçidlər üçün vasitələr təqdim edilməli,fəaliyyətin bitirilməsi və digər fəaliyyətin başlanması haqqında məlumat verilməsi gündəlik qaydaların bir parçasına çevrilməlidir. Keçidlərin uşaqlara bildirilməsində yardımçı vasitə kimi xüsusi qaydada əl çalınması və ya musiqinin səsləndirilməsindən də istifadə edilə bilər;
- Daha az seçimlər verilməlidir. Uşaqdan bir rəng seçilməsi istənilirsə, onda onun seçilməsi üçün iki və ya üç seçim verilməlidir;
- Daha dəqiq seçimlər verilməlidir və seçimlərin açıq saxlanmamasına çalışılmalıdır. "İndi nə etmək istəyirsən?" soruşmaq əvəzinə, "Oxumaq, yoxsa çəkmək istəyirsən?" kimi sualla müraciət edilib daha yaxşı nəticə əldə edilməsi mümkündür;
- Növbə və sosial məsafə kimi xüsusi sosial qaydalar, bacarıqlar öyrədilməlidir;
- Təlimatların təkrarlanması və onların aydın olmasının təmin edilməsi üçün qısa cümlələr qurularaq başa düşülməsi yoxlanılmalıdır;
- Həddindən çox asanlaşdırma lazım deyil. Tapşırıq qəliz olarsa, onda distrakterlərin (test tapşırıqlarında düzgün cavaba yaxın digər variantların olması) minimuma endirilməsi lazımdır. Lazım olarsa, fərdi çalışma sahəsi və ya guşəsindən istifadəyə icazə verilməlidir.
- Şagirdlərə bitdi deyildikdə nə nəzərdə tutulduğunu və bunun müəyyən edilməsində köməklik edilməlidir. İstənilən bitmiş məhsulun şəkli çəkilib şagirdlərə göstərilə bilər. Əgər otağın təmizlənməsi istənilirsə, onda təmiz olduğu hansısa bir vaxtda otağın şəklinin çəkilməsi lazımdır. Şagirdlər ona istinad edə bilərlər;
- Şagirdlərə fərdi şəkildə müraciət olunmalıdır (məsələn, şagird bütün sinfə verilən

təlimatların ona da aid olduğu həmişə müəyyən etməyə bilər. Şagirdə adı ilə müraciət olunmalıdır və “Bu sənin edəcəyin bir iş olduğuna görə qulaq asmağını istəyirəm” söyləmək bəzən işə yaraya bilər;

- Qəbul etmək lazımdır ki, şagirdin hərəkət və davranışlarındakı bəzi dəyişikliklər narahatlıq doğura bilər (bu da gündəlik nizam-intizam qaydalarında (kiçik) dəyişikliklərə səbəb ola bilər);
- Kobud və ya təcavüzkar davranışlar edilməməlidir. Bunu da bilmək lazımdır ki, şagirdin qəzəbinin hədəfi həmin qəzəbin mənbəyi ilə əlaqəli olmaya bilər;
- İşi şagirdin xüsusi maraqları ilə əlaqənləndirməyə nail olunmalıdır;
- Təhsil üçün sözlə ifadə olunan və kompüter əsaslı təlim araşdırılmalıdır;
- Hər zaman həmin şagirdin qorunması və onun xüsusi tələbləri haqqında yoldaşlarının məlumatlandırılması lazımdır;
- Həmin şagirdin başa düşməyəcəyi və ya xoşlamayacağı (idman və oyunlar kimi) müəyyən fəaliyyətlərdə iştrak etməməsinə icazə verilməlidir. Açıq suallar və qrup tapşırıqlarında həmin uşaqlara kömək edilməlidir;
- Müsbət cəhdlərə görə mükafat olaraq bir qədər kənar davranışlara icazə verilməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. İnklüziv sinif üçün fərqli əyani vəsaitlər hazırlayın (stendlər, cədvəllər və s.).
2. İnklüziv siniflərdə dərsin planlaşdırılması və təşkili prinsiplərini müzakirə edin.
3. İnklüziv sinif üçün müəyyən mövzularda slaydlar hazırlayın (hər tələbəyə 1 mövzu verilir).
4. Müəllimlər üçün məsləhətlər mövzusunda olan videoçarxı izləyin və təhlil edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Şəxsin idrak imkanlarına uyğun olaraq onun təhsil aldığı müəssisənin təhsil standartlarından (proqramlarından) istifadə edir”**

1. Diferensial təlim nə deməkdir? Açıqlayın.
2. Təlim prosesi hansı aspektlərdən ibarətdir? Sadalayın.
3. “İnkluziv sinfin təşkili zamanı müəllimin vəzifələri” mövzusunda təqdimat hazırlayın.
4. İnklüziv dərsin təşkili hansı prinsiplərə əsaslanır? Açıqlayın.
5. İnklüziv siniflərdə dərsin gedişatı hansı mərhələlərdən ibarətdir?
6. Əsas sinif strategiyalarını təhlil edin.
7. SİMŞ uşaqlar üçün təlim prosesində müəllimə hansı tövsiyələr verilir? Açıqlayın.

### 1.3. Mənimsəmə çətinlikləri və onların həlli yollarını qaydalara uyğun şəkildə müəyyən edir

Şagirdinlərin bir sinif çərçivəsində eyni bilik səviyyəsinə malik olması hallarında özünütənqid və özünüqiymətləndirmə bu uşaqlarda az inkişaf edir. Məhz bu baxımdan sinifdə müxtəlif səviyyədə uşaqlar olur. Sinifdə SİM olan uşaqlara tipik uşaqların iştirakı lazım olduğu qədər, tipik uşaqlara da SİM olan uşaqların iştirakı lazımdır.

**SİMŞ-lərin hansı mənimsəmə çətinlikləri ola bilər və buna dair müəllimlərə qısa tövsiyyələr**

**İntellektual pozuntusu olan uşaqlar.** Bu termin istənilən şəxsin şifahi ünsiyyət qurması, öz qayğısına qalması və ətrafdakı insanlarla qarşılıqlı münasibətləri davam etdirməsi kimi qabiliyyətləri ilə bağlı əqli funksionallığındakı məhdudiyyətləri ifadə edir. Bu məhdudiyyətlər uşağın tipik uşaqlardan fərqli olaraq daha ləng inkişafına və öyrənmə fəaliyyətinin daha zəif olmasına səbəb olur. Bu uşaqlar təhsil aldıqları zaman da çətinlik çəkirlər.

İntellektual pozuntusu olan uşaqların ətraf aləm haqqında bilik, bacarıq və vərdişlərə yiyələnmələri mümkündür, lakin bu proses uzun müddətli ola bilər.

İntellektual pozuntusu olan uşaqlar:

- Başqa uşaqlardan fərqli olaraq oturmağa iməkləməyə və yeriməyədaha gec başlayırlar;
- Danışmağı gec öyrənər, yaxud danışanda çətinlik çəkə bilərlər;
- Nəyisə xatırlamaqda çətinlik çəkə bilərlər;
- Reaksiya verməyin lazım olduğunu başa düşməyə bilərlər;
- Fəaliyyətlərinin nəticəsinə adekvat reaksiya verməyə bilərlər;
- Problemləri həll edən zaman çətinlik çəkə bilərlər;
- Məntiqli düşünməkdə çətinlik çəkə bilərlər.

Psixi inkişafda ləngiməsi olan şəxslərin xüsusiyyətlərinə aşağıdakılar aiddir:

- Ətrafdakıların köməyi olmadan müstəqil iş görməkdə çətinlik çəkmək;
- Məntiqsiz hərəkət və hərəkətlərdə oriyentasiyanın pozulması;
- Məkan və zaman anlayışlarını fərqləndirə bilməmək;
- Diqqəti toplaya bilməmək, diqqətin davamlılığı və paylanmasının yaş göstəricilərinə uyğun olmaması;
- Analiz-sintez etmək, ümumiləşdirmə aparmaq, müqayisə etmək və fərqləndirə bilməmək;
- İradi-emosional sahə və təxəyyüldə qeyri-adekvatlıq;
- Hadisələr arasında əlaqə görə bilməmək və bunu nitq vasitəsilə əks etdirmək.

**Daun sindromu** ilə doğulan uşaqlarla bağlı verilən məlumatlarda qeyd olunur ki, belə uşaqlarda məhdud anlama bacarığı, böyük və kiçik motorika problemləri var. Uşaqların nitqində ləngimə, zəif eşitmə və görmə problemləri olur.

**Autizmli uşaqların** təlimi zamanı aşağıdakı problemlər yaşana bilər:

**Sosiallaşma problemi.** Başqa uşaqların oyunlarına maraq göstərməyə və bacı-qardaşına münasibətdə qəddarlıq nümayiş etdirə bilər, valideynlər onu qucaqda tutduqda, yaxud öpdükdə buna hər yolla mane olmağa çalışır, təmas və qucağa alınmaqdan xoşu gəlmir.

**Kommunikativ (ünsiyyət) problemi.** Göz təmasından qaçır, başqaları ilə ünsiyyət qurmur, uzun müddət eyni mövzu üzərində danışır, tək qalmağı xoşlayır, səbəbsiz olaraq ağlayır, gülür və səbəbsiz davranışlar nümayiş etdirir, mənasız sözləri ardıcıl təkrarlayır, ehtiyaclarını ifadə etməkdə çətinlik çəkir, danışmaq əvəzinə, hərəkətlərə ehtiyaclarını ifadə etməyə çalışır və exolaliya (cavab vermək əvəzinə, özünə deyilənləri eynilə təkrar etmək) müşahidə edilir.

**Qəribə və ya ritual davranış.** Əllərini yellətmə, bir-birinə çırpma, durduğu yerdə öz ətrafında dönmə, xətt boyunca düzmə, öz-özünü yırğalamaq və işığı yandırıb söndürməyə sonsuz maraq göstərir.

**Motorika problemi.** Xırda motorika problemləri və fəza qavramanın defisiti müşahidə edilir, yöndəmsizlik, yaxud mükəmməl tarazlıq nümayiş etdirir və əşyaları davamlı olaraq çevirməkdən xoşu gəlir.

**Sensor problemlər.** Saçının qırxılmasına imkan vermir, su prosedurlarından qətiyyətlə imtina edir, musiqi səsinə güclə tab gətirir, əşyaları üzünə çox yaxın tutaraq fırladır, paltar dəyişməyi sevmir, səslərə qarşı həddindən artıq həssaslıq nümayiş etdirir və ya həddindən artıq laqeyddir.

**Özünə xətər yetirmə.** Başını çırpır, özünü dişləyir və bu zaman ağrı əlamətləri göstərmir, öz dərisini qaşıyıb cırmaqlayır, öz saçını yolur və ağrıya qarşı laqeyddir.

Autizmi olan uşaqların inkişafının ümumi qanunauyğunluğu ondan ibarətdir ki, onların təfəkkürünün inkişafında əks olunan bəzi psixoloji funksiyalar irəliləyə, bəziləri isə geriləyə bilər. Məsələn, bəzi uşaqlar rəngləri çox böyük dəqiqliklə seçib mürəkkəb naxışları qura bildikləri halda, özünəxidmət vərdişlərinin öhdəsindən gəlməkdə və böyüklərin göstəriş və tapşırıqlarını yerinə yetirməkdə böyük çətinlik çəkirlər. Autizmi olan uşaqların zəkasına gəldikdə onların bəziləri çox üstün riyazi bacarıqlar və əla hafizə kimi xüsusi qabiliyyətlərə sahib ola bilərlər.

Hiperaktivlik və diqqət əksikliyi sindromlu şəxslərin təlim çətinlikləri bunlar ola bilər:

1. Diqqətin defisiti
    - Asanlıqla yayınırlar;
    - Tez-tez başa çatdırmadıqları bir işdən digərinə keçirlər;
    - Verilən təlimatları yerinə yetirərkən çətinlik çəkirlər.
2. Hiperaktivlik
    - Çox danışırlar;
    - Belə uşaq üçün sakit oyunlar oynamaq çətindir;

- Stulda tez-tez dönür və hərlənirlər.

3. İmpulsivlik
   - Başqa insanların sözünü kəsir və oyunlarda öz növbələrini gözləmirlər;
   - Növbə ilə danışmaq lazım olanda çətinlik çəkirlər. Məs., suallara cavab verildikdə;
   - Fiziki cəhətdən təhlükəli olan vəziyyətdən yayınmaqla çətinlik çəkirlər.

**Kəskin beyin iflici** uşağın bütün fiziki qabiliyyətlərinə mənfi təsir göstərə bilər. Mülayim, yaxud kəskin dərəcəli beyin iflici olan uşaq əlil arabası və başqa alətlərdən istifadə etməyə məcbur olur. Beyin iflici olan uşaqların bəzən öyrənmə, eşitmə-görmə ilə bağlı problemləri va yaxud əqli gerilik problemləri də olur.

**Autizmi olan şagirdlərlə bağlı müəllimə tövsiyələr**

1. Autizmi olan şagirdlər çox zaman üz ifadələri, hərəkət dili və səs tonunun yozumunda çətinlik çəkirlər. Şagirdə təlimatlar verilərkən və rəyinizi ifadə edərkən mümkün qədər aydın və konkret danışın. Əmin olun ki, təlimatlar şagirdin ehtiyaclarına görə mərhələ-mərhələ, şifahi və vizual olaraq fiziki dəstək verilməklə və yönəldici sözlər söylənməklə verilir;
2. Yardım üçün peşəkarlara (həmçinin valideynlərə) müraciət edin ki, autizmi olan şagirdlərin qəribə davranışlarının mənalarını anlaya və bu yöndə olan problemlərin optimal həlli yollarını tapa biləsiniz;
3. Qaydalar və ardıcıllığın həyata keçirilməsində davamlılığı təmin edin. Biləndə ki, dərs cədvəlində hansısa bir dəyişiklik olacaq (əraziyə səyahət, yaxud toplantı kimi əlavələr), şagirdə nəyin dəyişiləcəyi, nəyin gözləniləcəyi və nə etməli olduğu deyilməklə onu bu dəyişikliyə hazırlayın. Şagirdləri hər kiçik uğurlarına görə mükafatlandırın. (9. Səhifə 25-26).

Hiperaktivliyi olan şagirdlərlə bağlı müəllimlərə tövsiyələr:

1. Diqqət əskikliyi və hiperaktivlik sindromu haqqında daha çox məlumat əldə edin;
2. Şagird üçün nələrin çətin olduğunu müəyyənləşdirin. Məsələn, diqqət əskikliyi və hiperaktivlik sindromu olan bir şagird tapşırığı həll etməyə başlayanda, başqası isə bitirəndə və növbəti tapşırığa başlayanda çətinlik çəkə bilər. Hər şagirdə fərdi qaydada yardım edilməlidir;
3. Qaydalar, cədvəllər və tapşırıqları divardan asın. Aydın qaydalar və rejimlər diqqət əskikliyi və hiperaktivlik sindromu olan hər bir şagirdə kömək edir;
4. Şagirdə tapşırıq cədvəli və gündəlikdən necə istifadə etməli olduğunu göstərin;
5. Şagirdin fiziki fəallığının lazımi istiqamətə yönəldə bilməsinə kömək edin (şagirdin bəzi məsələləri ayaq üstə və yaxud yazı lövhəsində həll etməsinə imkan yaradın). Müntəzəm olaraq planlaşdırılmış fasilələr elan edin;
6. Əmin olun ki, təlimatlar mərhələ-mərhələ verilir və şagird təlimatlara əməl edir. Təlimatları həm şifahi, həm də yazılı şəkildə verin. Diqqət əksikliyi və hiperaktivlik sindromu olan bir çox şagird mərhələlərə ayrılan tapşırıqlardan da faydalana

bilirlər.

Beyin iflici olanlarla bağlı tövsiyələr:

1. Beyin iflici haqqında daha çox malumat əldə edin;
2. Bu, aydın bir məsələ kimi görünə bilər, amma bəzən beyin iflici "Görüntüsü" belə bir yanlış təsəvvür yarada bilər ki, beyin iflici olan uşaq başqaları kimi öyrənmə qabiliyyətindən məhrumdur. Diqqətinizi uşağın fərdi qabiliyyəti üzərində cəmləyib təlim ehtiyacları və bacarıqlarını öyrənməyə çalışın. (9. Səhifə 28-29)

Nitq və dil məhdudiyyəti olan şagirdlərlə bağlı tövsiyələr:

1. Diqqətlə dinləməyi bacarın;
2. Paralel replikalardan istifadə edin. Uşağın atdığı hər bir addımın danışıq formasında təkrar edilməsi nitqin stimullaşdırılmasında yardımçı olur ( "Sən kitab açırsan");
3. Uşaqlara nitqin ekspressiv elementlərindən istifadə olunmasının səbəblərini izah edin (məsələn: İnformasiya və izahatın verilməsi, diqqətin cəlb edilməsi və etirazın ifadə olunması üçün istifadə olunur). (9)

**Yardımçı texnologiyanın istifadəsinə dair bəzi tövsiyələr**

Görmə məhdudiyyəti olan uşaqlar üçün:

- Ekranın ( "Mənə Qoşul") tətbiqetməsi olan"Ağıllı lövhə" (SMART board) kimi ağ interaktiv lövhədən istifadə edilə bilər, beləliklə lövhədə yazılanların oxuna bilməsi üçün görmə məhdudiyyəti olan uşaqlar kompüter və ya tabletdən istifadə edə bilsinlər;
- Müəyyən məsafədən daha yaxşı görünə bilməsi üçün uşaqlara binokl, monokl və ya böyüdücü cihazlardan istifadə edilməsinə icazə verilməlidir;
- Power Point təqdimatları hazırlanarkən Arial kimi sadə şrift seçilməli və minimum şrift ölçüsü kimi 24-dən istifadə edilməlidir. Çalışmaq lazımdır ki, animasiya və keçidlərdən istifadə olunmasın;
- Ehtiyac duyan uşaqlar üçün Brayl şriftindən istifadə olunmalıdır;
- Kompüterin ekranındakılarını şifahi olaraq təsvir edən proqram tətbiqetməsindən istifadə edilə bilər.

Eşitmə məhdudiyyəti olan uşaqlar üçün:

- Nitqi mətnə çevirən funksiyaya malik kompüterdən istifadə etmək olar;
- Elanlar üçün əyani vasitələr və sinifdə göstərilən videolar üçün başlıqlardan istifadə etmək olar;
- Əlavə əyani vasitələrdən istifadə olunmalıdır (proyektor, ağ lövhə, qrafiklər, lüğət siyahısı, mühazirə planları və s.);
- Uşaqdan şəxsi eşitmə cihazından istifadə etməsi xahiş olunmalıdır;
- Uşaq səsin gücləndirilməsi üçün müəllimin mikrofonuna qoşulan kiçik bir spikerdən də istifadə edə bilər.

Fiziki məhdudiyyəti olan uşaqlar:

- Fiziki əlilliyi olan uşaqların kompüterdən istifadəsinə yardımçı olması üçün hazırlanmış alternativ giriş cihazları təmin edilməlidir (sensor ekranlar, dəyişdirilmiş klaviatura, əyləncəli idarəedici çubuqlar və s.). Yazmaqda çətinliyi olan uşaqlar üçün kompüter, yardımçı proqram təminatı və qeydə alan cihazlardan istifadə oluna bilər;
- Sinif məşğələləri və imtahanlara verilən cavabları lentə almaq üçün danışılanı mətnə çevirən proqram təminatından istifadə edilməlidir;
- Yazmağı asanlaşdıra bilən qələm tutacaqları və ya erqonomik dizaynlı qələmlər təmin edilməlidir. Yazı alətlərinin yaxşı tutulmasında çətinlik çəkən uşaqlar üçün qalın yazı alətlərindən istifadə etmək asandır.

Əqli problemi olan uşaqlar üçün

- Uşağa mətni oxumaq yerinə audio qeydlərə qulaq asmağa icazə verilməlidir;
- Dərs yalnız oxu kitabları vasitəsilə deyil, həmçinin audio kitablar, kinolar və digər media vasitəsilə keçilməlidir;
- Tapşırıqlar üçün elektron imla yoxlamasından istifadə edilməlidir;
- Sinifdə qeydiyyat aparmaq və ya cavab vermək üçün kompüterdən istifadə edilməlidir;
- Tablet və ya iPadlardən istifadə edilməlidir. (9. Səhifə 47-48)

## Tələbələr üçün fəaliyyətlər

1. “SİMŞ-lərin mənimsəmə çətinlikləri” adlı “Press-konferensiya 1” keçirdin.
2. SİMŞ kateqoriyası üçün öz tövsiyələrinizi hazırlayın və təqdim edin 2. İstənilən SİMŞ kateqoriyası üçün yardımçı texnologiyadan istifadəsini nəzərdə tutan dərs nümunəsini hazırlayın.

[1] Tələbələr 2 qrupa bölünür: Jurnalistlər və mütəxəssislər
[2] Hər tələbə 1 kateqoriya seçməlidir.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Mənimsəmə çətinlikləri və onların həlli yollarını qaydalara uyğun şəkildə etmək olduğunu müəyyən edir”.**

1. SİMŞ-lərin hansı mənimsəmə çətinlikləri ola bilər ? Ayrı-ayrı kateqoriyalardan nümunələr göstərin.
2. Görmə məhdudiyyətli uşaqlar üçün yardımçı texnologiyalardan necə istifadə etmək olar?
3. Eşitmə məhdudiyyəli uşaqlar üçün dərs materialının daha yaxşı mənimsənilməsi üçün hansı vəsaitlərdən istifadə etmək olar?
4. Hansı yolla müəllim əqli məhdudiyyətli uşağı təlimə cəlb edə bilər?
5. Autizmi olan şagirdləri sinifə hansı yolla daha tez adaptasiya etmək olar?
6. Beyin iflici olan uşaqların xüsusiyyətləri nəzərə alınaraq onlara dərslərdə daha fəal olmağın yollarını izah edin.
7. Hiperaktivliyi olan şagirdlərin dərs zamanı diqqətini necə cəlb etmək olar?

## 1.4. Fəaliyyətini psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında həyata keçirir

Azərbaycan respublikası nazirlər kabinetinin 2002-ci il 29 aprel tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə görə: "Psixoloji-tibbi-pedaqoji komissiya sağlamlıq imkanları məhdud şəxslərin fiziki, əqli və (və ya) psixi ləngimələrin diaqnostikasının aparılması, bunun əsasında onların xüsusi (inklüziv) təhsilə cəlb olunması barədə qərar qəbul edilməsi, valideynləri və ya digər qanuni nümayəndələrinə müvafiq məsləhətlər verilməsi, mübahisəli məsələlərə baxılması məqsədi ilə yaradılıb. Psixoloji-tibbi-pedaqoji komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qərarları, Nazirlər Kabinetinin qərar və sərəncamları, Təhsil Nazirliyinin əmr, qərar və sərəncamları, komissiyanın Əsasnaməsi və digər normativ-hüquqi aktları rəhbər tutur."

**Psixoloji-tibbi-pedaqoji komissiya**

Ümumiyyətlə, SİMŞ təhsilinin istiqamətləndirilməsi psixoloji-tibbi-pedaqoji komissiyanın nəticələri əsasında müəyyənləşdirilir.

Tərkibi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən və daimi fəaliyyət göstərən psixoloji-tibbi-pedaqoji komissiyalar uşaqlarda fiziki çatışmazlıqlar, əqli və (və ya) psixi ləngimələrin diaqnostikasının aparılması, bunun əsasında onların xüsusi təhsilə cəlb olunması barədə qərar qəbul edilməsi, valideynləri və ya digər nümayəndələrinə müvafiq məsləhət verilməsi və mübahisəli məsələlərə baxılması məqsədi ilə yaradılır.

Psixoloji-tibbi-pedaqoji komissiyalara elmi-metodik xidmət göstərilməsi, habelə psixoloji-tibbi-pedaqoji komissiyalarla sağlamlıq imkanları məhdud uşaqların valideynləri və ya digər qanuni nümayəndələri arasında münasibətlər qanunvericilikdə müəyyən olunmuş qaydada həll edilir.

Psixoloji-tibbi-pedaqoji komissiyanın həyata keçirtdiyi əsas işlər: uşaqların psixoloji-tibbi-pedaqoji müayinəsinin aparılması və inkişaf xüsusiyyətlərinin aşkarlanması ilə diaqnozunu müəyyənləşdirmək; SİMŞ-lərin  xüsusi təhsilə cəlb edilməsi barədə qərar qəbul etmək; SİMŞ-lərin təhsil almaları üçün həyata keçirilən xüsusi təhsili müəssisənin tipini müəyyənləşdirmək; təyin edilmiş diaqnoz dəqiqləşdirilməklə təsdiq etmək və ya dəyişdirmək.

**Psixoloji-tibbi-pedaqoji komissiyanın təşkili**

Rayon və şəhər psixoloji-tibbi-pedaqoji komissiyaları Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli bölmələri ilə razılaşdırılmaqla Təhsil Nazirliyinin yerli şöbələrinin (idarələrinin) əmri ilə, Respublika psixoloji-tibbi-pedaqoji komissiyası isə Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmaqla Təhsil Nazirliyinin əmri ilə yaradılır (tərkibi Təhsil Nazirliyi tərəfindən müəyyən edilir).

Komissiyanın qərarı yekun rəy hesab olunur!

Komissiya üzvlərinin çoxu iştirak etdikdə komissiyanın iclasları səlahiyyətli sayılır.

Komissiyanın qərarları açıq səsvermə yolu və səsvermədə iştirak edən komissiya üzvlərinin səs çoxluğu ilə qəbul edilir.

Psixoloji-tibbi-pedaqoji komissiyanın vəzifələri aşağıdakılardır:

- Uşaqların erkən, habelə sonrakı yaş hədlərində psixoloji-tibbi-pedaqoji müayinəsini aparmaq və inkişaf xüsusiyyətləri aşkarlanmaqla diaqnozunu müəyyənləşdirmək;
- Sağlamlıq imkanları məhdud uşaqların xüsusi təhsilə cəlb edilməsi barədə qərar qəbul etmək;
- Sağlamlıq imkanları məhdud uşaqların təhsil almaları üçün xüsusi təhsili həyata keçirən müəssisənin tipini müəyyənləşdirmək;
- Fərdi təlim planına dair tövsiyələr vermək;
- Sağlamlıq imkanları məhdud uşaqlar üçün təyin edilmiş diaqnozu dəqiqləşdirmə ilə təsdiq etmək və ya dəyişdirmək;
- Sağlamlıq imkanları məhdud uşaqların valideynləri və ya digər qanuni nümayəndələrinə məsləhətlər vermək;
- Sağlamlıq imkanları məhdud uşaqların xüsusi təhsilinin təşkili, onlar və valideynləri və ya digər qanuni nümayəndələrinin hüquqları ilə bağlı məsələlərə dair pedaqoji, tibbi və sosial işçilərə tövsiyə və məsləhətlər vermək;
- Sağlamlıq imkanları məhdud uşaqlar barədə məlumat bankını təşkil etmək və məlumatları Təhsil Nazirliyi və Səhiyyə Nazirliyinə təqdim etmək;
- Xüsusi təhsil alma formalarını müəyyənləşdirmək;
- Şagirdlərin sinifdən-sinfə keçirilmə və buraxılış imtahanlarından azad edilməsi üçün qərar qəbul etmək;
- Fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri olanların pulsuz psixoloji-tibbi-pedaqoji korreksiya aparılması üçün rəy vermək;
- Ciddi tərbiyəyə ehtiyacı olan və 11 yaşından 14 yaşına qədər sağlamlıq imkanları məhdud şəxslərin xüsusi təhsil müəssisəsinə göndərilməsi üçün rəy vermək;
- Psixoloji-tibbi-pedaqoji komissiyanın üzvləri qərar qəbul etmək üçün rəyin məxfiliyinin saxlanması və aşkarlamamasına borcludurlar. Bu rəydəki məlumatlar qanunvericiliklə müəyyən olunmuş qaydada aşkarlana bilər;
- Xüsusi təhsil almaq hüquqi psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən verilən sənədlə təsdiq olunur;
- Psixoloji-tibbi pedaqoji komissiya verdiyi sənəddə məlumatların düzgünlüyünə görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır;
- Psixi inkişafın ağır ləngiməsi, debillik və imbesillik arasındakı yaxınlıq vəziyyət hallarında əqli geriliyin dərəcəsinin dəqiq diaqnozu yalnız təlim-tərbiyə prosesində təyin oluna bilərsə, o zaman diaqnozun dəqiqləşdirilməsi məqsədi ilə uşaq bir ildən artıq olmayaraq xüsusi təhsil məktəbinə göndərilir. Bu müddət qurtarıldıqdan sonra uşağın təhsilinin davam etdirilməli olduğu təhsil müəssisəsinin tipinin

müəyyən edilməsi üçün o, təkrar olaraq psixoloji tibbi-pedaqoji komissiyaya göndərilir.

Psixoloji-tibbi-pedaqoji komissiyada müayinə zamanı tələb olunan sənədlər bunlardır:

- Sağlamlıq imkanları məhdud şəxslərin valideynləri və ya digər qanuni nümayəndələrinin ərizəsi;
- Doğum haqqında şəhadətnamə;
- Baş həkim tərəfindən təsdiq edilmiş ətraflı tibbi arayış, yaxud xəstəlik tarixçəsindən çıxarış;
- Pedaqoji xasiyyətnamə;
- Qiymət cədvəli;
- Yaşayış yeri üzrə qeydiyyat haqqında arayış.
- Hər bir uşağın müayinəsi üçün 10-20 dəqiqə vaxt ayrılmalıdır.

Psixoloji-tibbi-pedaqoji komissiyada müayinə pulsuzdur.

Müayinədən keçirilmiş uşağa təlim-tərbiyə aldığı (alacağı) və yaxud müalicə olunacağı müəssisəyə göndəriş komissiyanın qərarına əsasən verilir.

Bu göndərişlə SİM uşaq müvafiq təhsil müəssisəsinə yönəldilir və komissiyanın verdiyi diaqnoz əsasında inklüziv (inteqrativ) sinfə qəbul olunur.

## Tələbələr üçün fəaliyyətlər

1. Psixoloji-tibbi-pedaqoji komissiyanın rolunu müzakirə edin.
2. Videonu izləyin. Uşağın xüsusiyyətlərini qeyd edib TPPK-ın rəyini hazırlayın.
3. Tələbələrə TPPK-nın bir neçə rəyini təqdim edib uşağın hansı təhsil müəssisəsinə yönəldilməsini müzakirə edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Fəaliyyətini psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında həyata keçirir”.**

1. Psixoloji-tibbi-pedaqoji komissiya hansı vəzifələri yerinə yetirir?
2. Psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi necə nəzərə alınmalıdır? Nümunə üçün orta əqli geriliyi, eşitmə problemi, kompleks qüsurlu (əqli gerilik+görmə problemli uşaqları hansı müəssisələrə təyin olunmağını qeyd edin. Qərarınızı əsaslandırın).
3. Psixoloji-tibbi-pedaqoji komissiyanın rəyinə nələr daxil oluna bilər?

# TƏLİM NƏTİCƏSİ 2

# İNKLÜZİV TƏHSİLƏ CƏLB OLUNAN ŞƏXSLƏRƏ SOSİAL-PSİXOLOJİ DƏSTƏK VERMƏK

## 2.1 Şəxslərin sosiallaşmasını və cəmiyyətə uğurlu inteqrasiyasını həyata keçirmək üçün müvafiq metodlar seçir

Cəmiyyət həyatına inteqrasiya dedikdə, sosial münasibətlər, təhsil, istirahət və icma fəaliyyətlərində iştirak başa düşülür. SİMŞ-in cəmiyyətə inteqrasiyası onların hərtərəfli inkişafına təsir göstərir. Lakin xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətdə inkişafına əngəl törədən və onların inteqrasiyasına mane olan digər amillər vardır. Belə maneələrin aradan qaldırılması və cəmiyyətdə bu cür uşaqlara əlverişli şərait yaradılması üçün kompleks tədbirlər həyata keçirilməlidir. Bu baxımdan, SİM uşaqların cəmiyyətə uğurlu inteqrasiyasının əsas təməlini onların sosial reabilitasiyası təşkil edir.

SİM uşaqların sosial inkişafına əlverişli şəraitin yaradılması və onların təlim-tərbiyəsi üçün optimal yolların tapılması xüsusi pedaqogika və ümumilikdə təhsilin əsas problemlərindən biridir. SİM uşaqların təlim-tərbiyə prosesi və sosial reabilitasyasının həyata keçirilməsi üçün onların özünəməxsus xüsusiyyətlərinin başa düşülməsi lazımdır. Bu xüsusiyyətlər onların sosiallaşdırılmalarını çətinləşdirir. Reabilitasiya tədbirləri nəticəsində uşaqların özünüaktuallaşdırmalarına maksimal şəraitin yaradılması ilə onların cəmiyyətə inteqrasyaları və fəal subyektə çevrilmələri mümkün olur.

Məktəbəqədər yaş dövründən başlayaraq onların reabilitasiya potensialının üzə çıxarılmağına imkan verən şəraitin yaradılması və sosial-pedaqoji köməyin göstərilməsi vacib məsələlərdəndir. Bu dövr uşaqların sosial inkişafı üçün səmərəli dövrdür. Müəyyən dərəcədə reabilitasiya olunmuş və məktəbə qədəm qoymuş kiçik yaşlı məktəblilərin də daim sosial-pedaqoji köməyə ehtiyacları var, lakin bəzən SİM uşaqlar birbaşa məktəbə gəlirlər. Bu zaman daha çox çətinliklər meydana çıxır. Onların məktəbə adaptasiyası, həmyaşıdları və müəllimlə ünsiyyətlərinin yaradılması, təlim prosesinə qoşulmaları çox vaxt tələb edir. Odur ki, məktəbdə keçiriləcək sosial-psixoloji xidmətə SİM uşaqların reabilitasya potensialının qiymətləndirilməsi, hansı inkişaf sahəsinə ehtiyac varsa, onların üzə çıxarılması, korreksiya və inkişafetdirici, bərpaedici reabilitasiya tədbirlərinin həyata keçirilməsi daxil edilməlidir. Problemin həlli SİM uşaqların sosial reabilitasiyasına imkan verir və onların məktəb kollektivi, eləcə də cəmiyyətin digər sahələrinə inteqrasiya olunmalarını asanlaşdırır.

Cəmiyyət onlara yardıma ehtiyacı olan obyekt kimi deyil, özünü aktuallaşdıran və reallaşdıran subyekt kimi baxmalıdır.

Məktəbdə sosial-psixoloji xidmət müəllimin, korreksiyaedici pedaqoqunun və psixoloqun qarşılıqlı fəaliyyəti əsasında qurulmalıdır. Problemə uyğun mütəxəsisslərin cəlb olunması, müəyyən ədəbiyyatların araşdırılması, pedaqoji prosseslərin təşkili, korreksiyaedici pedaqoq tərəfindən uyğun korreksiyaedici, barpaedici və inkişaf etdirici məşğələlərin aparılması və valideynlərin bu işə cəlb edilmələri uşaqların daha tez və uğurlu reabilitasiya olunmasına kömək edir. Fərdin natamamlıq səviyyəsi, ehtiyac və tələbatı, ailə vəziyyəti, yaşadığı sosial mühit, məktəbəqədər və məktəb mühitində aldığı tərbiyə, əlillik, reabilitasiyanın başlandığı yaş mərhələsi də sosial reabilitasiya prosesi və onun nəticəsinə təsir göstərir.

Respublikamızda ayrı-ayrı koteqoriyalar üzrə SİM uşaqlarının təlim-tərbiyəsinin

pedaqoji va psixoloji əsasları bir çox mütaxəssislər tərəfindan işlənmişdir. Lakin sağlamlıq imkanları məhdud olan uşaqların tipik həmyaşıdları ilə birgə sosial reabilitasiyasının hayata keçirilməsi istiqamətində tadqiqatlara çox az diqqət yetirilib. Bu sahədə qeyri-hökumət təşkilatları geniş araşdırmalar aparır və xarici təcrübədən faydalanaraq yerli reabilitasiya xidmətləri və inklüziv tahsilin təşkili sahəsində müəyyən işlər görür. Son zamanlar xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyası və təlim-tərbiyə prosesində istifadə olunan metodlardan bəhs edən elmi məqalələr və kitablar nəşr olunur. Bunlardan "İnklüziv təhsil", "Xüsusi ehtiyaclı uşaqların inkişafına dair rəhbərlik", "Uşaq inkişafı metodikası" və s. göstərmək olar.

Problemlərin həlli, digər sosial xidmətlərin göstərilməsi, onların sosial-madəni reabilitasiyası və asudə vaxtlarının daha səmərəli keçirilməsi kimi problemlərin həlli, eləcə də cəmiyyətdə maarifləndirmə işlərinin aparılması belə uşaqların sosiallaşdırılmasına təsir göstərən stereotiplərin aradan qaldırılmasında böyük rol oynayır.

Uşaqların sosial təcrübələrini mənimsəyərək cəmiyyətə inteqrasiyası onların fiziki, psixi və sosial potensiallarının optimallaşdırılması sayəsində mümkündür. Belə fəaliyyətlərdə xüsusi təşkil olunmuş təlim vasitəsilə SİM uşaqların ictimai münasibətlər sisteminə daxil olunmaları, psixoloji va fizioloji imkanları çərçivəsində cəmiyyətə layiqli və mahsuldar şəxsiyyət kimi formalaşdırılmaları diqqət mərkəzində olur. Təlim-tərbiyənin yerinə yetirilməsində psixotexniki va pedaqoji vasitələr kompleksinin hazırlanması asasdır. Sosial reabilitasiya prosesinin mahiyyəti tətbiq olunduğu SİM uşaqların xüsusiyyətləri və onlara yönəldilmiş təsirlə müəyyən edilir.

Sosial reabilitasiya – ümumi reabilitasiya fəaliyyətinin mühüm tərkib hissəsi olub tibbi, psixoloji, pedaqoji və iqtisadi reabilitasiya tədbirləri çərçivəsində yaradılır və özünəməxsus psixoloji və pedaqoji metodlarla həyata keçirilir.

Psixoloji reabilitasiya pozulmuş psixi proseslər, psixi xassələrin korreksiyası və ya kompensasiyası və psixoloji sağlamlığın bərpasına yönəldilmiş kompleks tədbirdir. İşin əsasını şəxsiyyətin müsbət istiqamətdə dəyişilməsi təşkil edir. Belə reabilitasiya bir tədbir formasından digərinə keçid zamanı psixoloji hazırlığı da təmin edir.

Pedaqoji reabilitasiya cəmiyyətinin sosial qanunauyğunluqları əsasında məqsədəyönəlmiş tərbiyə vasitələrinin təsiri ilə həyata keçirilir. Pedaqoji reabilitasiya prosesində SİM uşaqlar təlim fəaliyyətini mənimsəyir, bilik, bacarıq və vərdişlər qazanır. Nəticədə pedaqoji baxımsızlıq üzündən yaradılan digər halların aradan qaldırılması mümkün olur.

Tibbi reabilitasiya sayəsində sağlamlığın fizioloji cəhətdən qorunması, möhkəmləndirilməsi, xəstəlik nəticəsində pozulmuş fiziki funksiyaların bərpası, kompensator imkanlarının üzə çıxarılması və fəallaşdırılması prosesi həyata keçirilir ki, bu da SİM uşaqların psixi cəhətdən inkişaf etdirilməsində böyük rol oynayır.

Tibbi, psixoloji, pedaqoji və digər reabilitasiya faliyyətlərinin yerinə yetirildiyi şəraitdə sosial adaptasiya məsələsi meydana çıxarılır. Sosial adaptasiya şəxsiyyətinin sosiallaşdırılmasının sosial-psixoloji mexanizmlərindən olub uşağda ömrü boyu fasiləsiz baş verir və müxtəlif quruplarda fərdin sosial rolu qəbul etməsi ilə nəticələnir. Fərd özü və

sosial əlaqələrini nə qədər çox dərk edirsə, adaptasiyanın effektliliyini də bir o qədər artırır.

Sosial adaptasiyanın müxtəlif həyat fəaliyyəti proseslərində kompleks şəkildə həyata keçirilməsi uşağın sağlamlığı, əmək qabiliyyəti, sosial mövqeyi, hüquqi vəziyyəti, mənəvi–psixoloji tarazlığı və öz imkanlarına inamın bərpa ediləcəyinə şərait yaradır. Bir sözlə, uşağın fəal mənimsəmə yolu ilə mühitə uyğunlaşdırılması baş verir. Sosial mühitin fəal mənimsənilməsi yeni həyat şəraiti, ictimai mövqe, məişət çətinlikləri və peşə fəaliyyətinin xüsusiyyətlərinə tez və az itkilərlə uyğunlaşdırılmağa imkan yaradır.

Sosial adaptasiya və reabilitasiya bir-birilə sıx əlaqədə olan proseslərdir. Sosial reabilitasiya iki mərhələdə (sosial-məişət adaptasiyası və sosial mühitə bələdləşmə) həyata keçirilir. Sosial adaptasiya uşağı məişət və əmək fəliyyətinə hazırlayır, zaman və məkan bələdləşməsinə şərait yaradır. Sosial-məişət adaptasiyası üçün təşkil olunmuş məşğələlərdə özünəxidmət, əmək fəaliyyəti, məişət texnikası vasitələri ilə müstəqil hərəkət vərdişlərinin qazanılması üzrə iş aparılır. Məşğələlərdə birgə fəaliyyət zamanı insanlarla qarşılıqlı münasibət və müxtəlif fəaliyyətlərin təşkili təcrübəsini qazandırır, uşağın sosial bələdləşməsi baş verir. Sosial mühitə bələdləşmə uşağın ətraf mühiti müstəqil mənimsəməsidir. Uşaq qarşılıqlı nünasibətdə olmaq, başqasının qayğısına qalmaq, kollektiv işdə birgə fəaliyyəti planlaşdırmaq və real imkanı mənimsəmə bacarığına yiyələnir.

Sosial reabilitasiya fəliyyətinin strukturuna görə üç əsas komponenti qeyd etmək olar:

- Məqsədin qoyulması və fəaliyyətin planlaşdırılması;
- Təsir vasitələrinin seçimi və tətbiqi;
- Nəzarət və qiymətləndirmə.

Sosial reabilitasiya fəaliyyətində məqsəd SİM uşaqlara münasibətdə insan şəxsiyyətinin mahiyyətini dərindən dərk etməyə əsaslandırılır. Sosial reabilitasya məqsədəyönəlmiş proses kimi şəxsiyyətin inkişafına yönələrsə, uşaq öz potensialını müstəqil üzə çıxara bilər. Məqsəd uşağın psixidaqnostik və başqa vasitələrlə öyrənilməsi nəticəsində alınmış biliklərlə müəyyən olunur. Strukturuna görə sosial reabilitasiyanın məqsədi pedaqoji fəaliyyətdə olduğu kimidir. Onun üç növünü (ideal məqsəd, ümumi strateji məqsəd, ümumi taktiki məqsəd) qeyd edirlər.

İdeal məqsəd şəxsiyyətin hərtərəfli, fiziki, intellektual inkişafı və özünüaktuallaşdırma cəhdi kimi dəyərləndirilir.

Ümumi strateji həlli olan məqsəd şəxsiyyətin daxili nizam-intizamını, ətrafdakılarla səmərəli münasibət qurmasını təmin edir.

Taktiki həlli olan ideal və ümümi məqsəd SİM uşaqlarının qarşılarında məqsədqoymaya nail olmaqdır. Reabilitasiyanın davamı mütəxəsissin, valideynin SİM uşaqlarında stimulun, daxili gücün oyadılmasından, onların fərdi bacarıqlarının üzə çıxara bilmələrindən asılıdır. Bu mənada onlar müxtəlif metod və priyomlardan istifadə edərək diaqnostik, korreksiyaedici, inkişafetdirici, təlimləndirici, konsultativ və s. fəaliyyət göstərirlər.

Fəaliyyətin üçüncü struktur komponenti nəzarət və qiymətləndirmədir. Prosesin gedişi zamanı mütəxəssis geriyə nəzər salaraq mümkün olan imkan və vasitələrlə nəticəyə nə qədər yaxınlaşıb-yaxınlaşmadığını yoxlayır.

Sosial reabilitasiya fəaliyyəti uşaqlarla işləyən mütəxəssisin fəaliyyət strukturuna uyğun olmasından, təşkilatçılığından cox asılıdır:

1. Təşkilati iş;
2. Diaqnostik iş;
3. İnkişafetdirici və korreksion iş;
4. Məsləhət va söhbətlərin aparılması;
5. Sağlamlığın qorunması və həyat faliyyətinin təhlükəsizliyinin təmini;
6. Sosial nazarət.

Təşkilati fəaliyyat hazırlıq və tələblərin qoyulması mərhələlarindən ibarətdir. Əvvəlcə sosial reabilitasiya işinin layihəsi hazırlanır, problemin mahiyyati, həlli yolları müəyyən olunur; keçiriləcək korreksion və inkişafetdirici məşğələlərin məzmunu, forması və şərtləri, uşaqların oyun, əmək, xidməti faaliyyətləri dəqiqləşdirilir. Sonrakı mərhələyə istəklər, tələblər, məsləhətlər, göstərişlər, qeydlər daxildir. Təlim-tərbiyə prosesində pedaqoji talabkarlıq qoyulur. Tələbkarlıq aşağı düşdükdə uşağın fəaliyyətinin səviyyəsi də aşağı düşür. Diaqnostik mərhələ isə aşağıdakı yollarla yerinə yetirilir:

- Məlumatların toplanması;
- Məlumatların işlənilməsi və interpretasiyası;
- Qərarın çıxarılması- psixoloji diaqnozun qoyulması və onun əsasında inkişaf - pozuntularının müəyyənləşdirilməsi.
- Diaqnozdan aşağıdakı halların müəyyənləşdirilməsi üçün istifadə olunur:
- Uşağın sosial-psixoloji portretini yaratmaq üçün;
- Bir şəxsiyyət kimi onun inkişafında güclü və zəif cəhətləri aydınlaşdırmaq üçün;
- Sosial reabilitasiyanın məzmun və formasını müəyyənləşdirmək üçün;
- Korreksiyanın vasitə və formalarını seçmək üçün;
- Reabilitasiya prosesinin müxtəlif mərhələlərində psixi və şəxsi inkişafın dəyişməsini izləmək üçün.

Diaqnozun müəyyən edilməsi prosesində mütəxəssis uşağın motivasiyasını, fəaliyyətə həssaslığını nəzərə almalıdır. İnkişafetdirici fəaliyyət və korreksiya zamanı işi didaktik prinsiplərlə qurmaq lazımdır. Bu, uşağın idraki-emosional, iradi-sosial sferalarının birlikdə inkişafına yönəldilməli, psixi inkişafına xidmət etməlidir. İş fərdi plan üzrə aparılır. Proqram qarşılıqlı təsirdə olmaqla əmək fəaliyyəti, xidməti işlər, təlim, xüsusi inkişafetdirici oyunlar, məşğələlər vasitasilə həyata keçirilir.

Bu zaman əməkdaşlıq ünsiyyət, başqalarının hiss və həyəcanlarını anlamaq, özünüqiymətləndirmə va özünütəhlil bacarığı inkişaf edir. Eyni zamanda həm uşağın sosial tacrübəsi genişlənir, həm də o, intellektual bacarığa yiyələnir. Psixokorreksiya konkret problem - ikincili pozuntu üzərində qurularaq fərdi və qrup şəklində aparılır.

Konsultativ işin məqsədi ünsiyyətdəki çətinlikləri aradan qaldırmağa, öz psixi və fiziki imkanlarını anlanmağa, özünütəhlilə kömək etmək, güclü emosional sarsıntıları (stres, münaqişə və s. halları) aradan qaldırır. Uşaqlarla, valideynlarlə, digər mütəxəsislərlə

söhbətlərin aparılması da konsultativ işə aiddir.

Uşağın sosial reabilitasiyasını təşkil etmək üçün mütəxəssis xəstəliyin yaranma səbəbini, gedişini və müddətini bilməlidir. Uşaqlar isə bilməlidirlər ki, sağlamlığının nəticəsi əlverişli ətraf mühitdən, qidalanmadan, fiziki hərəkətlərdən, pis vərdişlərdən imtina etməkdən asılıdır. Sağlamlaşdırıcı işin əsasında fiziki gücün və imkanın inkişafı, möhkəmləndirilməsi durur.

Sosial nəzarət mərhələsinə aşağıdakılar daxildir:

- Problemin xarakterinin və həlli yollarının müayyən olunması;
- Uşağa xidmət göstərəcək mütəxəssisin və xidmət yollarının tapılması;
- Lazımi sənədlərin hazırlanması;
- Mütəxəssislərlə qarşılıqlı söhbət zamanı uşağın psixoloji müdafiəsinin təmini;
- Görülən işlərə nazarət.

Sosial reabilitasiyanın səmərəliliyi reabilitasiya tadbirlərinin nə dərəcədə mərhələli, fərdi, kompleks, ardıcıl və fasiləsiz olmasından asılıdır.

Sosial reabilitasiyanın keyfiyyət göstəriciləri bunlardır:

- Fəaliyyətin məqsədyönlülüyü işin sonunda uşağın hansı şəxsi və psixi keyfiyyətləri qazanması kimi başa düşülür;
- Fəaliyyətin əlverişli ifadə olunması uşaqlara birbaşa deyil, dolayı yolla təsirin yönəldilməsidir. Belə fəaliyyət dillə ifadə olunmaqla yanaşı, eyni zamanda əxlaq və dəyər normalarının təsiri ilə bilinir. Fəaliyyət o zaman effektli olur ki, uşaq onun təsirini şüurlu dərk etsin. Yalnız psixikaya təsir nəticasində şəxsiyyətin hərtərəfli inkişafına nail olmaq mümkündür;
- Sosial reabilitasiyanın intensivliyi hər bir mütəxəssisin fəaliyyətə fərdi yönəlişliyinin olması ilə şərtləndirilir;
- Dinamiklik fəaliyyətinin başlanğıc anından məqsədə nail olunanadək reallaşdırılması ilə şərtləndirilir;
- Fəaliyyətin effektivliyi nəticəyə maksimal dərəcədə yaxınlaşmaqla bilinir. Sinir sisteminin müxtəlif xüsusiyyətli olması, həmçinin müvafiq metod və vasitələrdən istifadə də effektiv nəticənin alınmasına təsir edir;
- Dəyişikliklərdə keyfiyyət meyarı qorunmalıdır. Səmərəliliyin əsas göstəricisi şəxsiyyət səviyyəsində olan dəyişikliklər, yəni reabilitasiya potensialı hesabına uşağın sosial–iqtisadi adaptasiya və inteqrasiya qabiliyyətini artırır.

Beləliklə, düzgün təşkil olunmuş reabilitasiya prosesi SİM uşaqların normal sosial fəaliyyəti üçün bu və ya digər qabiliyyətlərin bərpa edilərək onların öz məqsədlərinə nail olunmalarına şərait yaradır.

## Tələbələr üçün fəaliyyətlər

1. Korreksiya, reabilitasiya, adaptasiya və inteqrasiya anlayışlarının əlaqəsini izah edin.
2. Psixoloji reabilitasiya mövzusunda slaydlar hazırlayın (hər hansı bir SİMŞ kateqoriyası aid).
3. Sosial reabilitasiya mövzusunda slaydlar hazırlayın (hər hansı bir SİMŞ kateqoriyası aid).
4. Pedaqoji reabilitasiya mövzusunda slaydlar hazırlayın (hər hansı bir SİMŞ kateqoriyası aid).
5. Tibbi reabilitasiya mövzusunda slaydlar hazırlayın (hər hansı bir SİMŞ kateqoriyası aid).

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Şəxslərin sosiallaşması və cəmiyyətə uğurlu inteqrasiyasını həyata keçirmək üçün müvafiq metodlar seçir"**

1. Uğurlu sosillaşmanın əsas göstəriciləri hansılardır?
2. SİMŞ-in cəmiyyətə inteqrasiyanın yollarını qeyd edin.
3. SİMŞ-in cəmiyyətə inteqrasiyanın mərhələlərini qeyd edin.
4. Psixo-sosial reabilitasiyanı hansı yaş dövründə və necə təşkil etmək lazımdır?
5. Uşağın sosial reabilitasiyasının təşkil edilməsi üçün mütəxəssis xəstəliyin yaranma səbəbi, gedişi və müddətini nədən bilməlidir?

## 2.2. Ətrafdakılarla əlverişli sosial əlaqələrin qurulmasına dəstək verir

SİM uşaqların sosial əlaqələrin qurulması, bütün uşaqların eyni mühitdə bilik, bacarıq və vərdiş qazanmaları üçün inklüziv mədəniyyətin yaradılması əsas şərtdir.

**SİM uşaqların inklüziv təhsil şəraitində sosial əlaqələrinin qurulması**

İnklüziv təhsil üzrə britaniyalı tədqiqatçı Toni But hesab edir ki, inteqrasiya və inklüziya bir prosesin iki tərəfidir. İnteqrasiya sadəcə olaraq uşaqların iştirakını, inklüziya isə onların təhsil prosesinə daxil olmalarını təmin edir. Beləliklə, birinci prosesdə SİM uşaqlar mühitə məcburi adaptasiya olunurlar. Bu, birgə fəaliyyətin və tədrisin təşkil olunmasında çətinlik yaradır. İkincidə isə təlim mühiti və təlim standartları SİM uşaqların imkanlarına uyğunlaşdırılır. Bunun nəticəsində onlar təlim prosesində həm sosial və həm də koqnitiv cəhətdən iştirak edirlər.

SİM uşaqların inteqrasiyası üçün elə bir təlim-tərbiyə şəraiti təşkil olunmalıdır ki, belə şəraitdə uşaq fiziki iştirakdan başqa, sosial reabilitasiya olunmaqla mühitə uyğunlaşa, özünü kollektivin üzvi kimi dərk edə və kollektiv qarşılıqlı münasibətlərdə fəal ola bilsin. Bu mənada sağlamlıq imkanları məhdud uşaqların inteqrasiya prosesi onların daha çox müşahidə və analiz olunmasını tələb edir.

Məktəbdə sağlamlıq imkanları məhdud uşaqların sosial adaptasiya və fərdiləşmə mərhələlərindən keçilərək üç səviyyədə baş verir. Adaptasiya qarşılıqlı münasibətlərə reaksiya vermək və onu qəbul etmək bacarığı, fərdiləşmə uşağın qismən fəaliyyətə daxil olması və empatiya hissinin yaranması, tam inteqrasiya və ya inklüziya isə birgə fəaliyyətdə iştirakın yaranması ilə müəyyən olunur. Bunun üçün uşaqların müstəqil oyun fəaliyyətində və müəllimin nəzarəti altında qaydalarla idarə olunan oyunlar və konstruktiv fəaliyyətlərdə emosional, davranış və koqnitiv cəhətdən iştirakı müşahidə edilməlidir.

Uşaq adaptasiya səviyyəsində müstəqil və müəllimin nəzarəti altında qaydalarla idarə olunan istər oyun, istərsə digər fəaliyyət zamanı qarşılıqlı münasibətlərə, konstruktiv fəaliyyətlərdə isə fəaliyyətin gedişinə reaksiya verir. Beləliklə, öz reaksiyalarını qismən tənzimləməyi bacarır. Nəticədə təbii olaraq davranışında da hərəkət vasitəsilə reaksiya yaradılır. Koqnitiv cəhətdən iştirak isə hər üç oyun növündə təbii və impulsiv olaraq oyun fəaliyyətində iştirakın müşahidə olunmasıdır.

Fərdiləşmə səviyyəsində emosional iştirak dedikdə, başqa uşağın vəziyyətinə reaksiya vermə və onun hisslərini başa düşmə nəzərdə tutulur. Davranış komponentləri isə yerinə yetirilən rola və fəaliyyət gedişinə görə qarşılıqlı münasibətdə olduğu insana qısa yönəlmələrdə hiss olunur. Koqnitiv komponentlər uşağın fəaliyyət zamanı çətinlik çəkdikdə və konfliktli situasiyalara reaksiya verməsi ilə müəyyən olunur.

Sosial adaptasiya səviyyəsində uşaq qarşılıqlı münasibətdə olduğu və ünsiyyətə qoşulduğu digər uşağa diqqət yetirir və onun arzu və istəklərini nəzərə alır. Sərbəst oyunlarda partnyorunun roluna diqqət edir, özünü başqasının yerinə qoya bilir və kömək etməyi bacarır. Bundan başqa, iştirak etdiyi oyun və fəaliyyətin qaydalarına riayət edir və fəaliyyətin yerinə yetirilməsində partnyoruna kömək edir. Koqnitiv komponentlər isə həmyaşıdı çətinlik çəkdikdə ona konstruktiv reaksiya verilməklə bilinir, eləcə də konfliktli

situasiyaların alternativ həlli yolları göstərilməklə, birgə fəaliyyət haqqında razılaşma, bir-birinə güzəştə getmə və öz fikrində israrlı olma ilə bilinir. Konstruktiv fəaliyyət zamanı göstərişlərə uyğunlaşmaq, çətinlik zamanı həmyaşıdının yadına salmaq və yaşlılara müraciət etmək koqnitiv cəhətdən fəaliyyətdə iştirak etdiyini göstərir.

Kollektiv birgə fəaliyyətdə və qarşılıqlı münasibətlərdə iştirak edən SİM uşaqlar sosial statusların bərpası prosesində iştirak etmiş olurlar. Uşağın sosial statusunun bərpa olunması üçün məktəb daxilində və tədris prosesində özü-özünü idarə edən və tənzimləyən şagird kollektivinin formalaşdırılması əsas amildir. Belə kollektivlər ümumi məqsədə xidmət edən birgə fəaliyyətin təşkili nəticəsində yaradılır. Bu zaman iştirakçılar tərəfindən hər qrupa uyğun normalar və qaydalar müəyyən olunur. SİM uşaqlar qrupun norma, qaydaları və öz vəzifələrini mənimsədikcə davranışlarını buna uyğun tənzimləyərək sosial cəhətdən qrupun üzvü kimi formalaşdırılırlar.

Şagird kollektivinin formalaşdırılması prosesi təhsildə inklüziv mədəniyyətin yaradılmasının əsas amillərindəndir. Bunun üçün məktəbdə psixo-pedaqoji dəstəyin təşkili vacibdir. Bundan başqa, psixo-pedaqoji dəstək çərçivəsində kollektiv fəaliyyətin cari və perspektiv planlarının hazırlanması, pedaqoqların nəzarəti altında həyata keçirilməsi ilə yanaşı, eyni zamanda pedaqoji kollektiv və valideynlərin maarifləndirilməsi, SİM və digər uşaqların, eləcə də valideynlərin bir-birini qəbul etməsi, tolerant münasibətin yaradılması, müəllimlərin şəxsi və peşəkar səriştələrinin artırılması inklüziv mühit və mədəniyyətin yaradılmasının ilkin şərtidir.

## Tələbələr üçün fəaliyyətlər

1. SİM uşaqlarının sosial adaptasiyasına aid müxtəlif oyun və səhnəciklər hazırlayın (referat formasında).
2. Hər SİMŞ kateqoriyasına aid "Adaptasiya çətinlikləri" adlı təqdimat hazırlayın (2-3 tələbəyə bir təqdimat).
3. SİM uşaqların sosial əlaqələrinin xüsusiyyətlərini təhlil edin.
4. SİM uşaqların adaptasiyası istiqamətlərini müzakirə edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Ətrafdakılarla əlverişli sosial əlaqələrin qurulmasına dəstək verir".**

1. Müəllim-şagird münasibətlərinin müasir şəraitdə hansı xüsusiyyətləri vardır?
2. SİM uşaqların sosial əlaqələrin qurulması üçün hansı mühit olmalıdır?
3. SİM uşaqlarının inteqrasiyası üçün hansı istiqamətlər vardır?
4. Məktəbdə sağlamlıq imkanları məhdud uşaqların sosial adaptasiyası hansı mərhələlərdən keçirilir?

## 2.3. Fərdi proqramı reallaşdırmaq üçün yeni təlim metodlarından müvafiq şəkildə istifadə edir

İnklüziv təhsilin fəlsəfəsi təhsilalanların fərdiliyi və fərqliliyi anlayışlarını, xüsusilə vurğulamaqla fəal təlim metodlarının daha intensiv tətbiq edilməsini tələb edir. Bundan başqa, inklüziv təhsil təlimin daha mütəşəkkil və məqsədəuyğun şəkildə təşkilinin labüdlüyünə diqqət çəkməyi bacarır.

**SİMŞ-lə aparılan təlim işinin xüsusiyyətləri**

Formalaşmaqda olan yeni təlim texnologiyaları da müxtəlif potensiala malik təhsilalanları eyni çətir altında toplaya bilmək üçün adekvat prinsiplər tətbiq etməyi məqsədəmüvafiq hesab edir. Bu prinsiplər pedaqoji ədəbiyyatlarda iki qrupda təsnif olunur:

1. Şagirdin rəqabətə qabil, sosial və hərtərəfli inkişaf etdirilməsinə xidmət edən təlim-tərbiyə prinsipləri;
2. İnteraktiv təlim zamanı rəhbər ideyalar kimi qəbul edilməli prinsiplər.

İnklüziv təhsil çərçivəsində aparılan təlim işində aşağıdakı prinsiplərə əməl edilməlidir:

1. Demokratikləşdirmə. Demokratikləşdirmə təhsil prosesinin demokratikləşdirilməsində maraqlı olan bütün tərəflər, dövlət strukturları və ictimaiyyət nümayəndələri (müəllimlər, şagirdlər və valideynlər) təhsil prosesində fəal iştirak edilməyə cəlb edilmə deməkdir; tədris müəssisəsinin "Şəffaflığı" prinsipinin həyata keçirilməsidir;
2. Humanistləşdirmə. Humanistləşdirmə təhsil prosesində şagirdə münasibətin dəyişilməsini nəzərdə tutur. Bu eyni zamanda, yaradıcı inkişaf qabiliyyətli və humanist yönümlü şəxsiyyətin formalaşdırılması, əqli və fiziki imkanları, öyrənmə qabiliyyətindən asılı olmayaraq şagirdin şəxsiyyətinə hörmətlə yanaşma, şagirdin qabiliyyət və təmayüllərinin aşkar edilməsi, onların inkişafı üçün şəraitin yaradılmasıdır;
3. Diferensiallaşdırma. Təlimin diferensiallaşdırılması şagirdlərin imkanlarının nəzərə alınması əsasında qurulur;
4. Fərdiləşdirmə. Təhsilin fərdiləşdirilməsi şagirdlərin fərdi maraq və tələbatlarının nəzərə alınmasıdır;
5. İnteqrasiya. Təhsilin inteqrasiyası fənlərin öyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında qlobal təfəkkürün formalaşdırılmasının vacibliyini nəzərdə tutur.
6. Humanitarlaşdırma. Təhsilin humanitarlaşdırılması şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi çıxış edir və təhsilin məzmununun formalaşdırılmasına yeni yanaşmanı nəzərdə tutur. Bu ümumbəşəri dəyərlərin yaradılması ilə bağlı fənlərin rolunun artması, öz xalqının mədəniyyətinə qovuşma və dünya mədəniyyətinin dəyərləri ilə tanışlığı ifadə edir.

Yuxarıda sadalanan bütün prinsiplər təlim prosesində istifadə edilən metodların artırılması və təlim prosesinin rəngarəngliyinin təmin edilməsini nəzərdə tutur ki, bu da

eyni zaman və məkan daxilində şagirdlərin birgə təhsil almasına zəmin yaradır.

**Təlimin akkomodasiya və modifikasiyası**

Təlimin akkomodasiyası – tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyinin dəyişilmədən təlimin xarakterinin dəyişilməsidir. Akkomodasiya terminindən SİM uşağın cəmiyyətə adaptasiyasına şərait yaradan mühit və ya təchizatın dəyişdirilməsinin tərif edilməsi üçün istifadə olunur. SİM uşaqların nizamlı şəkildə təlim kursuna davam etmələrini təmin edir. Akkomodasiya öyrənməni fərdiləşdirən və materialı dəyişdirmədən öyrətməyə təşviq edən taktika və strategiyadır. Akkomodasiya materialı dəyişdirmədən SİM uşaqları öyrədə bilməkdir.

Akkomodasiya nümunələri bunlardır:

1. Eşitmə məhdudiyyəti olan uşaqlar üçün işarət dili tərcüməçiləri;
2. Görmə məhdudiyyətli uşaqlar üçün elektron mətn danışma sistemləri;
3. Kiçik motorika məhdudiyyətləri, görmə məhdudiyyətli və ya öyrənmə çətinliyi olan şagirdlər üçün uzun zamanın verilməsi;
4. Görmə məhdudiyyətli uşaqlar üçün böyük hərfli kitablar və s..

Təlimin modifikasiyası tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişir. Modifikasiya terminindən dəyişikliyin ifadə edilməsi üçün istifadə olunur. Müəllimin öyrətdiyi materialı başa düşməyən SİM uşaqlar üçün dəyişiklik edilir. Məsələn, tapşırıqların sayı azaldılır və material hissələrə bölünür və s.. Belə ki, modifikasiya şagirdin öyrənməsi üçün materialları dəyişdirən taktika və strategiyadır. Məsələn, uşaqların yaxınlıqdakı çaya ekskursiyaya getmələri nəzərdə tutulub. Onlar burada müşahidə aparmalı və sinfə geri döndükdən sonra isə hesabat yazmalıdırlar.

Ancaq təhlil aparıldıqdan sonra müəllim müəyyənləşdirir ki, şagirdlərin demək olar ki, yarısı çox ləng yazır (zəruri şərt – müstəqil öyrənmə bacarıqları) və onların təxminən dörddə biri kifayət dərəcədə müşahidə etmə bacarığı nümayiş etdirmir. Müəllim məşğələni modifikasiya etmək qərarına gəlir. Şagirdlərə seçim verilir. Onlar qeydlər apara və ya şəkillər çəkə bilərlər. Müəllim özü müxtəlif elementlərin şəklini çəkə bilər. Uşaqlar sinfə qayıtdıqdan sonra ya qeydlərinə əsaslanmaqla hesabat yaza, ya da müəllimin çəkdiyi şəkillərdə nəyin təsvir olunduğu ilə bağlı öz qeydlərini yaza bilərlər. Dəyişikliklər önəmlidir, ancaq materialın zənginliyi və şagirdin öyrənməsini təhlükəyə ata bilər.

Modifikasiyanın mənfi tərəfləri:

1. Dəyişikliklərin şagirdlər arasında daha böyük boşluqlara səbəb ola bilməsi;
2. Bir şagirdin daha az material öyrənməsi;
3. Tapşırıq və testlərin azaldılması. Bu zaman şagirdlər sadəcə asan tapşırıqların öhdəsindən gələ bilir.

Təlimdə ümumi uyğunlaşdırma SİM uşaqların fəaliyyətlərdə uğurla iştirak etmələrinə əhəmiyyətli dərəcədə yardım göstərsə də, onlar üçün fərdi akkomodasiya və modifikasiyalar tələb oluna bilər. Müəllimlərin təlim prossesinə tam cəlb olunmaları üçün

uşaqlara bərabər imkanlar yaradılması məqsədilə akkomodasiyalar həyata keçirilir. Başqa sözlə, akkomodasiyalar uşaqlara təlim prosesində iştirak etmək imkanı verir və onlara hansısa bir üstünlük vermir.

Təlimin akkomodasiya və modifikasiyasının həyata keçirilməsi yolları

Təlimin akkomodasiyası (uyğunlaşdırma). Akkomodasiya tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişir: Məsələn, ilkin riyazi anlayışların inkişaf etdirilməsinə aid məşğələdə tapşırığı yerinə yetirən uşaqlardan say çöpləri ilə işləmələri tələb olunur. Adətən, uşaqlar materialların təşkili zamanı çətinlik çəkirlər (zəruri şərt – müstəqil öyrənmə bacarıqları və fiziki-hərəki bacarıqlara malik olma). Tərbiyəçi bu çətinlikləri aradan qaldırmaq qərarına gəlir və uşaqların say çöpləri ilə işləmələri üçün karton qutuların qapağını uşaqlara verməklə materialların hazırlanmasında onlara yardım göstərir. Qapağın kənarları çöplərin ətrafa səpələnməsinin qarşısını alır. Bu da uşaqların diqqətinin tapşırığın yerinə yetirilmə üzərində cəmlənməsinə imkan verir.

Təlimin modifikasiyası (dəyişdirmə). Modifikasiya tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyinin dəyişilməsi ilə təlimin xarakterini dəyişir: Məsələn, uşaqların yaxınlıqdakı çaya ekskursiyaya getmələri nəzərdə tutulub. Onlar orada müşahidə aparmalı, qrup geri döndükdən sonra isə öz müşahidələrini bir-biri ilə bölüşməlidirlər. Müşahidə yerində tərbiyəçi təhlil apardıqdan sonra müəyyənləşdirir ki, uşaqlardan, təxminən dörddə biri, kifayət qədər müşahidə etmə bacarığına malik deyil. Tərbiyəçi məşğələni modifikasiya etmək qərarına gəlir. Uşaqlara seçim verilir. Onlar qeydlər apara və ya şəkillər çəkə bilərlər. Tərbiyəçi köməkçisindən xahiş edir ki, o da müxtəlif elementlərin şəklini çəksin. Uşaqlar qayıtdıqdan sonra ya qeydlərinə əsaslanmaqla danışa, ya da köməkçinin çəkdiyi şəkillərdə nəyin təsvir olunduğu ilə bağlı öz fikirlərini deyə bilərlər.

Səmərəli təlim bütün uşaqlar üçün əhəmiyyətlidir, ancaq inkişafında müəyyən problemləri olan bir çox uşaqların qrup məşğələlərində tam iştirak etmələri ilə öz potensiallarını realizə edə bilmələri üçün xüsusi dəstəyə ehtiyacları olur. Tərbiyəçi hər bir uşağın təlim prosesinə cəlb olunmasını təmin etməlidir. Müvəffəqiyyətin əldə edilməsi üçün onlar uşaqların inkişafı, maraqları və digər fərdi xüsusiyyətləri ilə bağlı ehtiyaclarını nəzərə almaqla təlimdə uyğunlaşdırma (akkomodasiya) və dəyişiklikləri (modifikasiyaları) həyata keçirməlidirlər.

Müxtəlif növ akkomadasiyalar tətbiq edilərkən təlimin məzmunu dəyişilmir, modifikasiyaların tətbiqi zamanı o adətən dəyişikliyə uğrayır. Bəzi hallarda modifikasiyalardan istifadə olunması uşağa məşğələlərdə iştirak etmə imkanı yarada bilər. Modifikasiyalar aşağıdakılar vasitəsilə həyata keçirilə bilər:

Mənimsənilməsi zəruri olan məzmunun qısaldılması. Uşaqdan məşğələnin ancaq bəzi hissələrində iştirak etmək və ya proqram üzrə tədris materialının məzmununun yalnız bir hissəsinin mənimsənilməsi tələb olunur. Bəzən, məşğələnin tələbləri uşağın qabiliyyətlərini üstələyir. Buna baxmayaraq, uşaqdan fəaliyyətdə qismən iştirak etmək tələb olunur: Məsələn, əqli geriləmə probleminə malik uşaq mövzunun daha sadə şəkildə ifadə olunmuş hissəsinə cəlb edilə bilər.

Fəaliyyətdə iştirakla bağlı verilən tələblərin azaldılması. Uşaqdan məşğələnin yalnız bir hissəsinin yerinə yetirilməsi tələb oluna bilər. Bu zaman SİM uşaqdan ya digər uşaqların mənimsəməli olduqları material, ya da onun bir hissəsinin mənimsənilməsi tələb olunur: Məsələn, disqrafiya ilə bağlı problemləri olan uşağa icazə verirlər ki, o, öz hekayəsini tərbiyəçi köməkçisinə nəql etsin. Fiziki əlilliyi olan uşaqdan daha az fəaliyyət yerinə yetirilməsi tələb oluna bilər.

Modifikasiyanın istənilən növünün SİM uşağın ailəsi ilə müzakirə edilməsi zəruridir, çünki əksər hallarda modifikasiya uşağın bilməli və bacarmalı olduqlarını dəyişir.

**Təlim prosesində istifadə olunan SİM uşaqlar üçün yeni metod və üsullar**

Müəllimin istifadə etdiyi metod və üsullar dərsin məqsədinin həyata keçirilməsi üçün bir vasitədir. Onlar bacarıqla seçilməli və istifadə edilməlidir. Metod və üsullar elə tətbiq etmək lazımdır ki, iş zamanı şagirdlərin fəaliyyət növləri dəyişdirilsin. Mənimsəmə prosesində mümkün qədər çox analizator (eşitmə, görmə və lamisə), motorika, yaddaş, məntiqi təfəkkür və digər fəaliyyət təmin olunsun. Əlbəttə, SİM olan uşaqlarla iş zamanı onların psixoloji xüsusiyyətləri də nəzərə alınmalıdır.

Korreksiyaedici işin ümumi qaydaları:

- Hər bir şagirdə fərdi yanaşma;
- Yorğunluğun qarşısının alınması üçün müxtəlif vasitələrdən istifadə (zehni və təcrübi fəaliyyəti növbələmək, materialı kiçik hissələrlə təqdim etmək və rəngarəng əyani vasitələrdən istifadə etmək);
- Təlim bacarıqlarını formalaşdıran, yazılı və şifahi nitqi inkişaf etdirən və öyrənmə fəaliyyətini aktivləşdirən metodlardan istifadə.

Təlim prosesinin təşkili üçün qeyd olunan metodlardan istifadə etmək olar. Qeyd olunan metodlar müxtəlif iş formalarına (fərdi, cütlərdə, qrup şəklində və s.) uyğun aparılır.

Vizual metodlardan inklüziv sinifdə dərsin başlanğıc mərhələsində istifadə edilir. Uşaqlar sinifdə, ilk növbədə, məktəb lövhəsini görürlər. Ondan səmərəli istifadə olunmalıdır və vizual dayaq təmin edilməlidir. İnformasiyanın ətraflı təsviri düzgün verilməlidir. Tapşırıqlar, şəkillər, sxemlər, cədvəllər, predmetlər və təcrübələrin nümayişləri və s. lövhədə təqdim olunur. Bu da materialın möhkəm mənimsənilməsinə imkan yaradır.

Praktik metodlar. Dərs praktik metodlar əsasında formalaşdırılır. Praktik metodlar öyrənmə prosesində uşaqlarda planlaşdırılmış elementlərin öyrənilməsi, bilik və bacarıqların formalaşdırılmasına yardım edir.

Praktik metodun vasitələri:

- Tapşırıq (yazılı və şifahi);
- Laboratoriya və praktik iş;
- Sxem;
- Rəsmçəkmə, applikasiya və qurma.

Şifahi metodlardan istifadə idrak fəaliyyətini aktivləşdirmək, düşüncəni formalaşdırmaq və yaradılmış çətinliyə tez reaksiya verməyə şərait yaradır.

Şifahi metodun vasitələri:

- Nağıletmə (şeir, nağıl və hekayə);
- Tamaşaların göstərilməsi.

Layihə metodu interaktiv metodlardan biridir. Öyrənmə prosesinin ayrılmaz bir hissəsidir. Layihə metodundan istifadə təcrübəsi göstərir ki, birlikdə öyrənmə yalnız asan və maraqlı deyil, həm də daha səmərəlidir.

Layihə metodu:

- Şagirdlərin ünsiyyət və əməkdaşlıq qabiliyyətlərini formalaşdırır;
- Tədqiqat aparma və materiallarla işləmə bacarıqlarını inkişaf etdirir;
- Vaxtdan düzgün istifadəni öyrədir;
- Şagirdlərdə özünəinamı artırır.

Hansı üsullar SİM olan şagirdlərə daha səmərəli öyrənməyə kömək edir?

- Şagirdlər üçün informasiyanın ötürülməsi üsullarını tez-tez dəyişmək;
- Tapşırığın yerinə yetirilmə formasını dəyişmək (yazmaq əvəzinə, testləri şifahi yerinə yetirmək);
- Tapşırığı hissə-hissə yerinə yetirmək.

İKT-dən istifadə etmək. Fərdi xüsusiyyətlər nəzərə alınmalı və tapşırıqlar üzərində iş stress, həyəcan və gərginlik yaradılmadan aparılmalıdır.

Öyrənilən mövzunun mürəkkəbliyindən asılı olaraq ev tapşırığının izahı bütün sinfə və ya fərdi verilir.

Dərsin təşkili ilə bağlı müəllim üçün tövsiyələr:

- Oxu dərsində kitabın açılmasına kömək etmək və materialın səhifəsi və oxunacaq mətnin göstərilməsi lazımdır. Oxu zamanı uşağın diqqəti yayına bilər, bunu nəzərə alaraq müəyyən vaxt keçdikdən sonra bir daha uşağa yaxınlaşmaq və mətni izləməyə kömək etmək vacibdir;
- Sinifdə verilən tapşırıqların həcminin azaldılması (suallar oxunmuş mətn əsasında verilirsə, onda SİM olan şagirdlərlə cəmi 2-3 sualın müzakirə edilməsi və ya mətnin yarısının oxunması) lazımdır;
- Cavab verilərkən SİM olan şagirdlərə artıq vaxt verilməsi (şagirdlərin reaksiyaları ləng ola bilər) zəruridir;
- Yazılı tapşırıqlar və testlərin həlli üçün daha çox vaxt tələb olunur, bu zaman müəllimin köməyinə ehtiyac var (dəftəri tapmaq, açmaq, qələmi tapmaq və s.).

SİM olan şagirdlər üçün tapşırıqlar tərtib edilərkən aşağıdakılar nəzərə alınır:

- Tapşırıq həm şifahi, həm də yazılı şəkildə tərtib olunur;
- Tapşırıq konkret, qısa, bir feilli və bir neçə təlimatlı olur;
- Tapşırıq verilərkən şagirdin yanında dayanılır;
- Başladığı işin bitirilməsi üçün şagirdə şərait yaradılır.

SİM olan şagirdlərin emosional və öyrənmə mühitinə korreksiyaedici təsir etmək üçün

aşağıdakı üsullardan istifadə olunur:

- Oyun situasiyaları;
- Əşyanın xüsusiyyətlərinin müəyyən olunmasını tələb edən didaktik oyunlar;
- Digər şagirdlərlə ünsiyyəti inkişaf etdirən oyunlar;
- Üz və əl əzələlərini sakitləşdirən gimnastikalar.

Müəllim tədris materialının uyğunluğunu təhlil etdikdən sonra seçdiyi təlim metodunun uyğun olub-olmadığını müəyyənləşdirməyə çalışmalıdır. İstənilən metodların tətbiqi ilkin şərt kimi şagirdlərdə müəyyən bilik və bacarıqların olmasını nəzərdə tutur.

Müəllimlər dərsdə istifadə etmək üçün seçdikləri metodların tətbiqi zamanı şagirdlərin hansı potensial çətinliklərlə üzləşə biləcəklərini müəyyən etməlidirlər. İstifadə ediləcək təlim metodlarının təhlili zamanı müəllimlərin bu və ya digər metodunun uğur qazanmasının şərti kimi verilən bacarıqları nəzərdən keçirmələri zəruridir: əqli, sosial, müstəqil öyrənmə və fiziki. Təlim metodlarının təhlili müxtəlif ehtiyacları olan uşaqlar üçün təlimin planlaşdırılmasında birinci mərhələdir.

Növbəti mərhələ uşaqların müxtəlif ehtiyaclarına uyğun olan metodların istifadə olunmasından ibarətdir. Bu isə təlimdə uyğunlaşdırma (akkomodasiya) və dəyişikliklərin (modifikasiyaların) həyata keçirilməsini tələb edir.

**Universal təlim mühiti**

“Universal təlim mühiti” dedikdə, intellektual və fiziki imkanlarından asılı olmayaraq istisnasız olaraq bütün uşaqlara xidmət gösrətə bilən və “Elastik” imkanalra malik təlim çərçivəsi nəzərdə tutulur. 1990-cı illərdə Harvard Universitetinin alimləri tərəfindən irəli sürülən bu konsepsiyada kurikulumun üç əsas prinsipi əks olunur:

- İnformasiya və biliklərin müxtəlif vasitələrlə əldə edilməsi üçün şagirdləri fərqli vasitələrlə təmin etmək;
- Öz bilik və bacarıqlarının nümayiş etdirilə bilməsi üçün şagirdləri fərqli vasitələrlə təmin etmək;
- Şagirdlərin öyrənməyə həvəsləndirilməsi və təlim prosesində fəal iştirakının təmin edilməsi məqsədilə onların maraq və bacarıqlarına uyğun təlim məşğələləri təşkil etmək.

Bu konsepsiya kurikulum üçün dörd əsas bölmə müəyyən edir: təlimin məqsədi, təlim metodları, təlim materialları və qiymətləndirmə. Fiziki, intellektual və təşkilati maneələrin minimuma endirilməsi və bu yolla şagirdlərin inklüziv təhsilə daxil edilməsi bu konsepsiyanın qarşıya qoyduğu əsas prinsipdir.

Məlum olduğu kimi bütün hallarda inklüziv təhsildən istənilən nəticənin alınması üçün müəllimlərin lazımi keyfiyyətə malik olması şərtdir. İnklüziv təhsilə cəlb olumuş müəllimin ən mühüm məziyyətlərindən biri odur ki, müəllim sinifdə elə münasib mühit yarada bilsin ki, bütün şagirdlər kollektivə mənsub olma hissinə malik olsunlar. Şagirdlərin bu hissə malik olması son dərəcə vacibdir. Çünki bu inklüziv təhsilin təməlində dayanan faktorlardan biridir. Əks halda SİMŞ-lər kollektiv içərisində özlərini təcrid olunmuş hiss edə bilərlər ki,

bu, arzuolunmaz nəticələr verə bilər. Belə olan halda inklüziv təhsil özünün başlıca məqsədinə çata bilmir. İnklüziv təhsilin məqsədi SİMŞ-in ümumtəhsil məktəblərində sadəcə fiziki surətdə mövcud olmalarını nəzərdə tutmur. Burda ən öndə məqsəd əlilliyi olan və olmayan uşaqların bərabərhüquqlu surətdə qaynayıb-qarışmaq və bütün imkanlardan bərabər səviyyədə istifadə etmək imkanının təmin edilməsidir.

Müəllimin digər tələb olunan keyfiyyətləri aşağıdakı kimi təsvir edilə bilər:

- Müəllim təlimin ümumi nəticəsi haqqında aydın təsəvvürə malikdir;
- Hər dərs üçün müvafiq olan təlimdə üsul və materillar düzgün seçilə bilir;
- Bütün şagirdlərin öyrənmə potensialına malik olduğu faktını tanıyır;
- SİMŞ-in ehtiyaclarından irəli gələn problemlərə aktiv reaksiya verilməklə kifayətlənmir, həm də problemlərə proaktiv (profilaktik) yanaşır, yəni qabaqlayıcı tədbirlər görür;
- Təhlükəsiz, etibarlı və həvəsləndirici təlim mühiti təşkil edir;
- Sinifdə universal təlim mühiti qurur;
- Qiymətləndirmə əməliyyatı şagirdlərin nailiyyətlərinin müqayisə edilməsi ilə deyil, onların fərdi inkişaf tempi və nəticələrinə əsasən aparır;
- Şagirdlərin öyrənmə tələbatlarını dəqiq müəyyənləşdirə bilir;
- Təlimin fərdi tədris planına əsasən təşkilini təmin edə bilir;
- Məktəb psixoloqu və digər həmkarlarla, eləcə də valideynlərlə səmərəli əməkdaşlıq edə bilir;
- Peşəkar inkişafının təmin edilməsi üçün təlimlərdə iştirak edir.

İnklüziv təhsilin səmərəsini artıran digər bir amil inklüziv məktəb amilidir. Şübhəsiz ki, inklüziv təhsil sadəcə bir sinfin divarları daxilində cərəyan edən proses deyil. İnklüziv təhsil bütün təhsil müəssisəsini əhatə etməlidir, çünki şagirdlərin yalnız təlimi sinif daxilində baş tutursa, onların təhsili məktəb səviyyəsində gerçəkləşdirilən prosesdir. Başqa sözlə, şagirdləri bir şəxsiyyət kimi formalaşdıran sinfin dar mühiti deyil, məktəb səviyyəsində həyata keçirilən tədbirlər və digər fəaliyyətlərdir. Bu mənada inklüziv təhsil də bütövlükdə məktəbi əhatə etməlidir. Bunun üçün isə məktəbin hazırlıq səviyyəsi yüksək olmalıdır. Məktəbin hazırlıq səviyyəsi isə müxtəlif meyarlar ilə xarakterizə edilə bilər.

İnklüziv məktəb, ilk növbədə, müstəsna şagirdlər üçün fiziki müyəssərliyi təmin etməlidir. Yəni məktəbdə əlilliyi olan şagirdlərin sərbəst və maneəsiz hərəkəti üçün müvafiq avadanlıqlar, panduslar, hətta yeri gəldikdə lift quraşdırılmalıdır.

Təhsil müəssisəsində lazımi maddi-texniki baza, zəngin əyani təlim materialları və yardımçı texnoloji avadanlıqların olması da ən vacib şərtlərdəndir. İnklüziv məktəbi bu vasitələrsiz təsəvvür etmək mümkün deyil. Çünki bu vasitələr təlim-tədris prosesinin zənginləşdirilməsinə töhfə verən əvəzedilməz amillərdir.

Bundan başqa, inklüziv məktəblərdə SİMŞ-lər üçün xüsusi sinif otaqları (resurs otaqlar) nəzərdə tutulur ki, həmin uşaqlar ehtiyac yaradıldıqda təlimin müəyyən bir qismini həmin siniflərdə alsınlar. Xüsusi otaqların digər bir təyinatı da ondan ibarətdir ki, müstəsna uşaqlar xüsusi psixo-emosional vəziyyətlərdə tək qalmağa ehtiyac duyduqda bu otaqlardan

istifadə etsinlər.

Məktəbin şəhər və qəsəbə daxilində yerləşmə mövqeyi də inklüziv təhsilin keyfiyyətinə təsirsiz ötüşmür. Belə ki, məktəbin magistral yollar və səs-küyə səbəb olan digər obyektlərdən kənarda yerləşdirilməsi məqsədəuyğundur. Çünki fasiləsiz səs-küy təlim prosesi zamanı şagirdlərin diqqətlərinin cəmlənməsi və müəllimin izahatının rahat eşidilməsinə mane olur. Bu hal əlaxüsus diqqət çatışmazlığı və hiperaktivlik sindromu, autizm sindromu və eşitmə qüsuru olan şagirdlər üçün ciddi maneə törədir.

**Xüsusi təhsil koordinatoru**

SİMŞ-lə aparılan təlim işinin səmərəsinin artırılması üçün mütəşəkkil inklüziv təhsil xidməti verən ölkələr, adətən məktəblərə xüsusi təhsil koordinatoru təyin edir. Bu vəzifəni tutan şəxsin lazımi bilik və səriştələr əldə etməsi üçün müvafiq təlimdən keçirilməsi zəruridir. Yuxarıda qeyd edildiyi kimi inklüziv təhsil yalnız sinif daxilində deyil, bütün məktəb miqyasında formalaşdırılmalıdır. Bunun üçün isə inklüziv təhsilin bir mərkəzdən idarə olunması, rəhbərlik, müəllim, köməkçi müəllim və valideynlər bərabər surətdə məlumatlandırılması və əməkdaşlığının təmin edilməsi üçün əlaqələndirilməsinə ehtiyac var. Bu funksiyanı da xüsusi təhsil koordinatoru icra edir. Xüsusi təhsil koordinatorunun vəzifələri aşağıdakı kimi qruplaşdırıla bilər:

- Məktəb daxilində inklüziv təhsil siyasətinin müəyyənləşdirilməsi və inklüziv təlim strategiyasının qurulmasında iştirak etmək;
- Şagirdlərin xüsusi təhsil ehitiyaclarının olub-olmamasını müyyənləşdirmək;
- Fərdi tədris planı hazırlanmaqla iştirak etmək və onun müvafiq olaraq tətbiqə nəzarət etmək;
- İnklüziv təhsil iştirakçıları (şagird, müəllim, köməkçi müəllim, valideyn, psixoloq, məktəb rəhbərliyi və s.) arasında əlaqələndirici rolu oynamaq;
- XQEU-ın məktəbdaxili və məktəbdənkənar təhsildə aktiv iştirakını təmin etmək;
- XQEU-ın təliminin periodik olaraq monitorinqini aparmaq;
- Müəllim və müəllim köməkçilərinə lazımi təlimatlar vermək və onlara köməklik göstərmək;
- Ehtiyac olduqda XQEU-a birbaşa xidmət göstərmək;
- Ehtiyac olduqda məktəbdənkənar xidmətlərdən (tibbi, sosial, psixoloji və digər xidmətlər) istifadə etmək;
- Özünün peşəkar inkişafına cəhd göstərmək.

**XQEU-la aparılan sinifdənkənar və məktəbdənkənar işlər**

İstər ölkəmizdə, istərsə də mütəşəkkil təhsil sitemınə malik digər ölkələrdə təhsil sadəcə məktəbdə aparılan təlim-tərbiyə işi ilə məhdudlaşdırılmır. Sinifdənkənar və məktəbdənkənar təhsil müəyyən mənada məktəbdə verilən təhsili tamamlayır, yaxud onun əlavəsi kimi çıxış edir. Məktəbdə tədris proqramı əsasında aparılan təlim işi sinifdənkənar və məktəbdənkənar təlim-tərbiyə işi ilə daha da möhkəmləndirilir. Şagirdlərin maraq, istək və bacarıqları əsasında təşkil edilən sinifdənkənar və məktəbdənkənar təhsil həm də

şagirdlərin məktəbə olan maraq və rəğbətinin artırılmasına xidmət edir. Ölkəmizdə fəaliyyət göstərən təlim-tərbiyə müəssisələrinin (musiqi məktəbləri, idman məktəbləri, incəsənət məktəbləri, bədii yaradıcılıq evi, uşaqların və gənclərin turizm və ekskursiya mərkəzi, estetik tərbiyə mərkəzi, uşaq teatrı və s.) fəaliyyətinə nəzər salanda aydın olur ki, müəssisələr geniş çeşiddə fəaliyyət sahələrini əhatə edir ki, bu da bütün uşaqlara öz maraqlarına uyğun məktəbdənkənar fəaliyyət növü seçməyə imkan verir.

Sinifdənkənar və məktəbdənkənar təlim-tərbiyə işi dünya miqyasında, ələlxüsus ölkəmizdə inklüziv təhsil kontekstində xüsusilə mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi 45 dəqiqəlik dərs prosesində SİM uşaqların təlim prosesində fəal iştirak imkanları o qədər də çox deyil. Belə olan halda sinifdənkənar və məktəbdənkənar təhsil imkanı verir ki, bu kateqoriyadan olan uşaqlar öz həmyaşıdları ilə qaynayıb-qarışsın və beləliklə sosial fərd kimi formalaşsınlar. Bu mənada sinifdənkənar və məktəbdənkənar fəaliyyətin inklüziv təhsilin ayrılmaz bir hissəsinə çevrilməsi son dərəcə mühümdür. Şagirdlərin, xüsusilə, sağlamlıq imkanları məhdud olan şagirdlərin sosial və akademik inkişafının yalnız məktəb təhsilindən gözlənilməsi o qədər də doğru yanaşma deyil. Xüsusi təhsil ehtiyacları olan uşqların inkişafı üçün bütün imkanlar səfərbərliyə alınmalıdır ki, bu səfərbərlik tədbirləri içərisində sinifdənkənar və məktəbdənkənar təhsil ən ömdə tədbirlərdəndir.

Könüllülük prinsipi əsasında təşkil edilən məktəbdənkənar təhsil məktəb təhsilinə maneçilik törədilmədən mütəşəkkil, planlı və məqsədyönlü şəkildə təşkil olunur. Xüsusi təhsil ehtiyacları olan uşaqların tam və dolğun inkişafının təmin edilməsi məqsədilə məktəb və məktəbdənkənar təhsil müəssisəsi arasında əməkdaşlığın olması vacibdir. Hər iki təhsil müəssisəsi bir-birini harmonik surətdə əvəz etməli və tamamlamalıdır. XQEU-ın inkişafı kontekstində bu təhsil müəssisələrinin bir-birindən kəskin fərqlədirilən strategiya və üsullardan istifadə etməsi uşağın inkişaf tempi üçün maneə törədə bilər. Elə məhz bu mənada məktəbdənkənar təhsil müəssisəsində XQEU-ın təlimi ilə məşğul olan mütəxəssis ümumtəhsil müəssisəsində hazırlanan fərdi tədris planında nəzərdə tutulmuş şəxslər sırasına daxil edilməlidir. Bu, məktəblə məktəbdənkənar təhsil müəssisəsi arasında körpü yaratmaq və hər iki müəssisənin eyni məqsəd istiqamətində fəaliyyət göstərməyinə imkan yaradacaq.

İnklüziv təhsil verən inkişaf etmiş ölkələrdə qeyri-akademik fəaliyyət də adlandırılan məktəbdənkənar təhsil təşkil edilir ki, bir çox hallarda bu cür təhsil forması, hətta müvafiq təhsil qanunlarında öz əksini tapır. Məsələn, ABŞ-da sağlamlıq imkanları məhdud şəxslərin təhsili haqqında olan "Əlilliyi olan şəxslərin təhsili haqqında akt" məktəbdənkənar təhsili dəqiq və qəti təsbit edir.

Sözügedən qanun bildirir ki, təlim və digər fəaliyyətlərlə yanaşı, eyni zamanda məktəblər sağlamlıq imkanları məhdud olan uşaqların öz ehtiyaclarına maksimum müvafiq olan formada digər həmyaşıdları ilə birgə dərsdənkənar fəaliyyət və xidmətlərdə bərabər surətdə iştirak etməsini təmin etməlidir. Bundan başqa, qanun tələb edir ki, məktəblər uşaqların qeyri-akademik (dərsdənkənar, yaxud məktəbdənkənar) fəaliyyətlərdə iştirakı üçün zəruri və fərdi tədris planında öz əksini tapmış xidmət və vasitələrin olmasını təmin etməlidir. Qanun eyni zamanda nəzərdə tutulan qeyri-akademik və məktəbdənkənar

fəaliyyətlərin də siyahısını verir. Bura atletika, sağlamlıq xidmətləri, əyləncəli tədbirlər, dövlət tərəfindən maliyyələşdirilən xüsusi maraq klubları, sağlamlıq imkanları məhdud şəxslərə kömək edən təşkilatların xidmətlərindən istifadə, müxtəlif məsləhət xidmətləri və digər xidmətlər daxildir.

Reabilitasiya Qanunu da məktəbdənkənar təhsil haqqında təfsilatlı müddəaları özündə ehtiva edir. Bu qanun ümumi xidmətlə, qeyri-akademik və dərsdənkənar xidmətlər, məsləhət ximətləri, fiziki tərbiyə və atletika xidmətləri xüsusi punktirlərlə qeyd edilmişdir.

## Tələbələr üçün fəaliyyətlər

1. Müəyyən mövzunu PİL (intellektual problemli, eşitmə və ya görmə problemli və s.) olan şagird üçün uyğunlaşdırın.
2. Proqrama uyğun mətnlərdən görmə məhdudiyyətli uşaqlar üçün böyük hərfli kitablar hazırlayın (4-5 tələbəyə 1 kitab).
3. Verilmiş müəyyən dərsin intellektual prolemli şagird üçün məzmunu qısaldın.
4. Vizual metodların köməyi ilə keçmiş mövzunu möhkəmləndirin (vizual vəsait hazırlamaq).
5. SİM olan şagirdlər üçün verilmiş mövzunun möhkəmləndirilməsi üçün tapşırıqlar tərtib edin.
6. "Çoxintellektlilik" nəzəriyyəsinin inklüziv təlimdə tətbiqini araşdırın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Fərdi proqramı reallaşdırmaq üçün yeni təlim metodlarından müvafiq şəkildə istifadə edir"**

1. İnklüziv təhsil çərçivəsində aparılan təlim işi üçün əhəmiyyət kəsb edən prinsiplər hansılardır? Açıqlayın.
2. SİMŞ-lər üçün təlim prosesinin uyğunlaşdırılması və ya dəyişdirilməsi yollarını açıqlayın.
3. "Çoxintellektlilik" nəzəriyyəsinin inkluziv siniflərdə tətbiqinin əhəmiyyətini izah edin.
4. Qardnerin təklif etdiyi üsullar hansılardır?

## 2.4. Həyata keçirdiyi təlim-tərbiyə işlərini müəyyən olunmuş meyarlar əsasında qiymətləndirir

Şagirdin qiymətləndirilməsi təhsil qərarlarının qəbul edilməsi üçün öyrənənin nailiyyətləri barədə məlumatların toplanması prosesidir.

Qiymətləndirmə həm müəllim, həm də şagirdləri tədris prosesinə dair məlumatlarla təmin edir. Bu məlumatlardan həm tədris, həm də öyrənmə prosesinin keyfiyyətinin təkmilləşdirilməsində istifadə edilə bilər. Davamlı qiymətləndirmə aşağıda göstərilən müxtəlif hallarda istifadə edilə biləcək zəngin məlumat toplusunu təmin edir:

- Müəllimin özünütəhlili. Bütün şagirdlər nəzərdə tutulan biliklərə yiyələnə bilirlərmi? Dərs planı nəzərdə tutulan tədris nəticələrini dəstəkləyirmi? Kim üçün nə yaxşıdır və nə yaxşı deyil? Fənnin tədris edilməsi üçün daha yaxşı üsul varmı?
- Şagirdin özünütəhlili. Mən necə öyrənirəm və ya qavrayıram? Daha nələri öyrənmək istəyirəm? Buna necə nail ola bilərəm?
- Valideynlərlə ünsiyyət. Şagird məktəbdə necə öyrənir? Şagird evdə necə öyrənir? Məktəb, şagird və müəllimlərin gözləntiləri nədir? Evdə öyrənməni məktəbdə öyrənmə ilə necə əlaqələndirə bilərik?

**İnklüziv sinifdə qiymətləndirmə prinsipləri**

İnklüziv sinifdə qiymətləndirmə fəaliyyətinin aparılmasının əsasında aşağıdakı prinsiplər durur:

1. Qiymətləndirmə təbii şəkildə öyrənmə fəaliyyətinə inteqrasiya olunmuş daimi prosesdir. Tədris mərhələlərindən asılı olaraq qiymətləndirmə diaqnostik, formativ və summativ olur. Yekun qiymətləndirmə təlim müddətində qiymətlərin ümumiləşdirilmiş nəticəsi kimi qeydə alınır;
2. Qiymətləndirmə yalnız meyarlar əsasında aparılmalıdır. Qiymətləndirmənin əsas meyarları müəyyənləşdirilmiş təlim nəticələridir (Fərdi tədris planının "Tədris proqramının mənimsənilməsi" bölməsində şagirdin fərdi öyrənmə imkanları çərçivəsində müəyyənləşir). Qiymətləndirmənin qayda və meyarları əvvəlcədən müəllim və şagirdin birgə hazırladıqları qiymətin verilməsi alqoritminə əsasən müəyyənləşdirilir.

İnkişaf pozuntuları olan şagirdlərlə işləmə zamanı qiymətləndirmənin ümumi meyarlarının daha xırda və lokal meyarlara ayırılması lazımdır.

Məsələn, Azərbaycan dili fənni üzrə yazılı tapşırıq yerinə yetirilərkən sözün müxtəlif orfoqramlarının düzgün yazılışı, lüğət tərkibinin doğruluğu və işin estetik tərtibatı da qiymətləndirilə bilər. Hər bir konkret vəziyyətdə müəllim şagirdin tapşırığının hansı meyarlar əsasında aparılacağı haqqında məlumat verir, həmçinin bu barədə valideynləri xəbərdar edir. Aparıcı meyarlar şagirdə verilən tapşırığın formasına təsir göstərir. Mümkündür ki, müəllim düzgün yazı bacarığını yoxlamaq üçün şagirdə çap mətni üzərində buraxılmış hərfləri bərpa etmək və sözdən doğru istifadə bacarığını yoxlamaq üçün cümlə yazmağı təklif etsin.

3. Qiymət vasitəsilə şagirdin şəxsi keyfiyyətləri deyil, yalnız fəaliyyət nəticələri yoxlanılır. Yalnız öyrənilənləri yoxlamaq olar. Qiymətləndirmə sistemi elə formalaşdırılır ki, şagirdlər özünüqiymətləndirmə və qarşlıqlı qiymətləndirmə vərdişlərinə yiyələnərək yoxlama-qiymətləndirmə fəaliyyətinə qoşulsunlar.

Təcrübə göstərir ki, müəllimlər hər zaman şagirdin göstərdiyi cəhdləri nəzərə ala bilmirlər. Onların fəaliyyətini qiymətləndirməyi bacarmayaraq ya həddindən artıq tərifləyirlər, ya da nəticəni dəyərləndirə bilmirlər. Bu zaman şagird hansı meyarlara əsasən qiymətləndirildiyini anlamır və öz nəticələrinə tənqidi yanaşa bilmir. Müəllimin belə yanaşması SİM şagirdin sinif yoldaşlarında da anlaşılmazlıq yaradır. Onlar soruşmağa başlayırlar: Nə üçün həmin şagird fərqləndirildi? Tam yerinə yetirilməmiş tapşırığın belə yüksək qiymətləndirilməsinin səbəbi nədir? Buna görə də müəllimin inkişaf pozuntuları olan şagirdlərə kömək məqsədi ilə valideynlər və psixopedaqoji müşahidələr aparan mütəxəssislərlə birgə işləməyi vacibdir.

Korreksiyaedici pedaqoq, psixoloq və valideyn uşağa dərsdə daha bacarıqlı olmağa yardım göstərə bilər. Məsələn, bütün şagirdlərin hələ yalnız indi öyrənəcəyi materialla SİM şagirdi əvvəlcədən tanış edilməklə.

Şagirdin inkişaf xüsusiyyətləri nəzərə alınaraq təşkil edilən təlim prosesində və təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllim mütləq şagirdin fərdi imkanlarına uyğun metod və üsulları tətbiq etməlidir:

- Bütün şagirdlərin istifadə edə biləcəkləri əyani materiallar birgə hazırlanmaqla;
- Təlim fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi ilə şagirdin tanış edilməklə;
- Öz işinin bütün şagirdlərlə bərabər qiymətləndirmə üzərində əvvəlcədən "Məşq" edilməklə.

Hazırda hələ də SİM şagirdlərin təlim fəaliyyətinin nəticələrinin dövlət təlim standartlarına əsasən planlaşdırılmış ümumtəhsil nəticələri ilə üst-üstə düşməməsi məsələsi sual olaraq qalır. Bu məsələ normativ sənədlər hazırlandıqdan sonra daha aydın olacaqdır.

Verilmiş tapşırıqlar əsasında SİM şagirdin qiymətləndirilməsi verilən ardıcıllıqla həyata keçirilə bilər. Şagirdə hər hansı tapşırığın həll edilməsi təklif edilməzdən əvvəl "Qorxunu götürmək" lazımdır: özünəinamsızılıq, tərəddüd və ətrafdakıların qiymətləndirilməsindən qorxunun aradan qaldırılmasına kömək edilməlidir.

Qeyd olunan ifadələrdən istifadə oluna bilər: "Biz hər şeyi təcrübədən keçiririk və axtarışdayıq. Beləliklə, nəyəsə nail olmaq mümkündür"; "Yalnız heç nə etməyənlər yanılmazlar, buna görə də..."; "Yoxlama işində elə tapşırıq yoxdur ki, sən öhdəsindən gələ bilməyəsən"; "Bu materialı biz səninlə tamamilə öyrənmişik"; "Belə tapşırıqları az etməmişik".

"Qorxunu götürmək" əməliyyatından sonra pedaqoji fəaliyyət "avanslaşdırma" əməliyyatı ilə davam etdirilir. Şagirdin keyfiyyətlərinin nəzərə alınması: yaddaş, diqqət, reaksiyanın sürəti, mühakimə qabiliyyəti və s..

Müəllim şagirdin qarşıya qoyulmuş məsələnin öhdəsindən gələcəyinə qəti əminliyini mütləq nümayiş etdirməlidir. Bu ifadələrdən istifadə edə bilər: "Sənin bacarıqların imkan

verir ki"; "Sən mütləq bacaracaqsan, çünki". Şagirdin aktivliyinin stimullaşdırılmasında "Motivin göstərilməsi" əməliyyatı – məqsəddən motivasiyaya keçmək böyük əhəmiyyət daşıyır (nəyin və kimin xatirinə fəaliyyətin aparıldığı izah olunur).

Motivin göstərilməsi formulu belə görünür: "Bizə bu, çox vacibdir"; "Bütün işimizin uğuru səndən asılıdır".

Pedaqoji fəaliyyətin sosial istiqaməti şagirdin qüvvəsinin görüləcək işdəki vacibliyinin vurğulanması ilə davam etdirilməlidir. Bunun üçün "Fərdi istisnalıq" əməliyyatından istifadə edilməsi təklif edilir: Şagirdin ünvanına yönəldilmiş fərdi istisnalıq tapşırılan işin məsuliyyətinim dərk edilməsi və özünətələbkarlığı artırır və şagirdi uğurlu nəticəyə hədəfləndirir. Uyğun ifadələr: "Yalnız sən bacarardın"; "Belə bir xahişlə səndən başqa heç kimə müraciət edə bilməzdim"; "Sən mənim qoçağımsan, sənə güvənirəm"!". (9. Səhifə 63-64)

SİM şagirdin qiymətləndirilməsinə verilən tələblər:

- Nailiyyət və sərf edilmiş qüvvəni nəzərə alan fərdi meyarlardan istifadə edilməli;
- Gündəlik qiymətləndirmə aparılmalı;
- Testlərə cavab verə bilməyən şagirdlərin sərbəst işləri qiymətləndirilməli;
- Müsbət qiymətləndirməyə hədəflənməli;
- Uşağın həll edə bilmədiyi tapşırığın üzərində dəyişikliklər edilməli;
- Dəyişdirilmiş tapşırıq əsasında qiymətləndirmə aparılmalı. (9. Səhifə 67)

**Şagirdlərin inklüziv qiymətləndirilməsi**

İnklüziv qiymətləndirmə inklüziv təhsilin təməlində duran prinsipləri və fəlsəfəni dəstəkləyir. Sözügedən metod şagirdlərin biliklərə yiyələnmə imkanlarının genişləndirilməsi ilə yanaşı, eyni zamanda öyrənənlərin fərdi müxtəlifliyinin də nəzərə alınaraq təhsilin keyfiyyətinin təkmilləşdirilməsinə öz töhfəsini verir. İnklüziv qiymətləndirmədə istifadə edilən strategiyalar və toplanan məlumatlar yalnız seçim, attestasiya, hesabatvermə və ya müqayisə kimi "ənənəvi" məqsədlərlə istifadə edilməməli, həmçinin bütün təhsil səviyyələrində nailiyyətlər və bərabərliyin artırılması üçün daha nəzərəçarpacaq şəkildə səfərbər edilməlidir.

İnklüziv qiymətləndirmənin əsas elementlərinə daxildir:

- Bütün qiymətləndirmələr başa düşülən və əlaqələndirilmiş olmaqla yanaşı, eyni zamanda öyrənmə prosesinin məlumatlandırılması və təşviq edilməsi məqsədini rəhbər tutur;
- Şagirdlərin biliklərə yiyələnmələri ilə əlaqəli olaraq onlar qiymətləndirmə prosedurlarına cəlb edilirlər;
- Həm summativ, həm də formativ qiymətləndirmə yanaşmaları daxil edilir;
- Müvafiq maraqlı tərəflər arasında formativ qiymətləndirmə üçün təlim və dəstəyə sərmaye qoyuluşunun edilməsi;
- Qiymətləndirmədə innovasiyaların edilməsi dəstəklənir;
- Tədqiqat, nəzəriyyə və təcrübə inklüziv qiymətləndirmə koordinasiya edilir və dəstəklənir.

Universal dizaynlı sınaqlar aydın quruluşa malikdir və şagirdlərə sərbəstlik verir. Habelə onlar bütün uşaqlar üçün maksimal şəkildə əlçatan dizayna malik olmaqla əlilliyi olan uşaqlara təsir edə biləcək problemləri minimuma endirir. Bu o deməkdir ki, uyğunlaşma yalnız əlilliyi olan uşaqlar üçün deyil, həmçinin bütün uşaqlar üçün həyata keçirilir. Nəticədə bütün uşaqlar universal dizaynlı sınaqlardan bəhrələnə bilirlər. Bu sınaqlara müəyyən qruplar üzrə təcrübəyə əsaslanaraq qərəzliliyin azaldılmış, asan və aydın başa düşülən, bütün uşaqların bilik səviyyəsində və ya o səviyyədən aşağı olan suallar, habelə oxunması və başa düşülməsi asan olan diaqramlar daxildir.

Universal dizaynlı sınaqların keçirilməsi və nəticələrin təqdim olunması əlilliyi olan uşaqlara uyğunlaşdırılmalıdır (akkomodasiya) olunmalıdır (Cədvəl 2.1).

| Akkomodasiya növləri | İdeyalar |
|---|---|
| Təqdimatda akkomodasiyalar | Qiymətləndirmənin şifahi oxunması (ya lentə yazılmış səslə və ya yetişkin oxucu tərəfindən oxunması) |
| | Qiymətləndirmənin böyük şriftlərlə yazılması |
| | Böyüdücü vasitələrdən istifadə edilməsi (böyüdücü şüşə) |
| | Sınaq sualları üçün jest dilinin idarə edilməsi |
| | Brayl üsulu ilə sınaqlar |
| | Taktil qrafiklərdən istifadə edilməsi (əlilliyi olan uşaqların toxunmaqla hiss edə bildikləri 3-D ölçülü diaqramlar) |
| | Manipulyasiya obyektlərindən istifadə edilməsi (müxtəlif formalı fiqurlar, real qəpiklər və çötkə) |
| | Eşitməyə kömək edilməsi üçün səs tezliyinin artırılması (danışanlar üçün eşitmə aparatı) |
| | Mətni oxuyanlar üçün kömpüter ekranları |
| Cavablandırmada akkomodasiyalar | Sualların cavablandırılmasına kömək edilməsi üçün kompüter və ya köçürücüdən istifadə edilməsi |
| | Sualların cavablandırılmasına dəstək olunması üçün köməkçi texnlogiyadan istifadə edilməsi (işarələrin göstərilməsi, kompüterlər və s.) |
| | Brayl rayterdən istifadə edilməsi |
| | Ayrıca kitabçada qeyd etməkdənsə, cavabların birbaşa olaraq sınaq kitabçasında işarələnməsi |
| | İnzibati vasitələrdən istifadə edilməsi (kalkulyatorlar, orqanayzerlər, orfoqrafiyanın yoxlanması proqramları və lüğətlər) |
| Tərtibatda akkomodasiyalar | Diqqət yayınmalarının qarşısının alınması üçün sınağın başqa məkanda keçirilməsi |
| | Sınaqların kiçik qruplarla keçirilməsi |
| | Otaqda işıqlandırmanın tənzimlənməsi (uşaqların ehtiyaclarına |

| Akkomodasiya növləri | İdeyalar |
| --- | --- |
| | uyğun olaraq daha az və ya daha çox işıqlandırma) |
| Zamanlamanın akkomodasiyası | Sınağın tamamlanması üçün vaxtın artırılması |
| | Çoxsaylı və ya tez-tez fasilələrin verilməsi |
| | Sınaq ardıcıllığının dəyişdirilməsi (həyəcanın azaldılması üçün daha asan mövzuların əvvəldə verilməsi) |
| | Sınağın bir gündə tamamlanmasının əvəzinə, bir neçə gün davam etdirilməsi |

**Cədvəl 2.1. Qiymətləndirmənin keçirilmə və təqdimat üsulları**

İnklüziv qiymətləndirmədə korreksiyaedici pedaqoqların rolu aşağıdakılardan ibarətdir:

- Dərslərin planlaşdırılması, eləcə də xüsusi uşaqlar və ya uşaqlar qrupu üçün müvafiq tədris hədəfləri və nəticələrinin müəyyən edilməsində ümumi təhsil müəllimlərinə dəstək;
- Dərs planında fərqli tədris nəticələrinin necə əldə edilə biləcəyinə dair təkliflərin verilməsi;
- Bütün uşaqlar üçün əlçatan ola biləcək qiymətləndirmə strategiyasının hazırlanmasında ümumi təhsil müəllimlərinə dəstək;
- Hər kəsin iştirakının təmin edilə biləcək sınaq və imtahanların nizamlanmasında ümumi təhsil müəllimlərinə dəstək;
- Bütün uşaqların onların qarşısında qoyulan tədris hədəfləri istiqamətində nailiyyətlərin əldə edilməsinə nəzarət edilməsi məqsədilə şagirdlərin qiymətləndirilməsi nəticələrinin müzakirə edilməsi üçün ümumtəhsil sahəsindəki müəllimlərlə müntəzəm olaraq görüşlərin keçirilməsi;

Şagirdlərin qiymətləndirilməsi nəticələrinə əsaslanaraq bütün uşaqlar üçün təlim və tədrisin təkmilləşdirilməsi yollarının ümumtəhsil sahəsindəki müəllimlərlə müzakirəsi.

**Çoxşaxəli dəstək qrupları ilə birlikdə qiymətləndirmə prosesi üçün istiqamətlər aşağıdakılardır:**

- ➢ Lazım gələrsə müxtəlif sahələrdən olan mütəxəssislər (psixoloq, ümumi təhsil müəllimi, fizioterapevt, sosial işçi və profpatoloq) dəstək qrupu formalaşdırılmalıdır. Onlar qarşılarına ümumi məqsəd qoyaraq şagird, onun ailəsi və sinif müəllimləri ilə birlikdə bütün qrup ilə işə cəlb olunmaqla qarşılıqlı əməkdaşlıq çərçivəsində çalışmalıdırlar;
- ➢ Qiymətləndirmə əməkdaşlıq və çoxşaxəli iş prinsiplərinə əsaslanmalıdır. Bütün şagirdlərin ehtiyaclarını qarşılayacaq müxtəlifliyin əldə edilməsinin ən yaxşı yolu inklüziv təhsilə cəlb olunan bütün iştirakçıların qarşılıqlı əməkdaşlıq və ümumi tədris təcrübəsinin əldə edilməsinə yönəldilmiş inklüziv prosesin dəstəklənməsidir. Qiymətləndirmə bu ümumi tədris prosesinə yardım etməlidir;

- Çoxşaxəli qrupda çalışan mütəxəssisin hansı sahəni (tibbi, psixoloji və ya sosial) təmsil etməsindən asılı olmayaraq, əlilliyi olan uşaqlarla əlaqəli qiymətləndirməsdə aşağıdakılar nəzərə alınmalıdır:
  - Sırf kəmiyyət metodları ilə müqayisədə keyfiyyət metodlarına üstünlük verilməsi;
  - Qiymətləndirmənin daha geniş təlim prosesinin bir hissəsi olması;
  - Təlim və tədrisi məlumatlandırılmasının hədəflənməsinə əsaslanma;
- Çoxşaxəli dəstək qrupunun mütəxəssisləri diaqnozun nəticəsi olaraq şagirdin qiymətləndirilməsi və kateqoriyalara ayırılmasının çatışmazlıqlarının nəzərə alınaraq şagirdlərin fərdi ehtiyaclarının effektiv və xüsusi “Diaqnozu” arasında balansın olması təmin edilməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. SİM şagirdin hər kateqoriyası üçün müvafiq tədris hədəfləri müəyyən edin.
2. Brayl üsulu ilə sınaqları hazırlayın.
3. Şagirdin qiymətləndirilməsi üçün müəyyən mövzu əsasında sorğu hazırlayın.
4. Şagirdin qiymətləndirilməsi üçün müəyyən mövzu əsasında testlər hazırlayın.
5. İstənilən fənn üzrə SİM şagirdinin (hər kateqoriya üçün ayrı-ayrı) qiymətləndirilməsi üçün nümunəni hazırlayın.



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Həyata keçirdiyi təlim-tərbiyə işlərini müəyyən olunmuş meyarlar əsasında qiymətləndirir”.**

1. İnklüziv sinifdə qiymətləndirmə fəaliyyətinin aparılmasının əsasında hansı prinsiplər durur?
2. İnklüziv qiymətləndirmənin elementləri hansılardır?
3. İnklüziv qiymətləndirmədə xüsusi pedaqoqların rolu nədən ibarətdir?
4. Müəllimlərə korreksiyaedici pedaqoqun dəstəyinin əhəmiyyəti nədən ibarətdir?
5. Təlim nəticələrinin yoxlanılması prinsipləri hansılardır?
6. Hansı qiymətləndirmə üsulları vardır?
7. İnklüziv siniflərdə formativ qiymətləndirmə çətinliklərinin aradan qaldırılması üçün nə etmək olar?
8. İnklüziv siniflərdə hansı alternativ qiymətləndirmə sistemindən istifadə etmək olar?
9. Hansı yollarla qiymətləndirmələr şagirdləri məzmunun həqiqiliyi və aidiyyatını başa düşməyə cəlb edə bilər?
10. Təlim prosesində şagirdin göstərdiyi səylər necə qiymətləndirilə bilər?
11. Hansı strategiyalar və ya dəstəklər şagirdə qarşısına çıxan maneələrə baxmayaraq, öyrənmə üçün səy göstərməyə yardımçı ola bilər?
12. SİM şagirdin qiymətləndirilməsinə verilən tələbləri izah edin.

## 2.5. Fəaliyyət planlarının yenilənməsi zamanı qiymətləndirmə nəticələrindən müvafiq qaydada istifadə edir

**Fəaliyyət planlarının yenilənməsi zamanı qiymətləndirmənin nəzərə alınması**

Məlumdur ki, təlimin əsas məqsədi SİMŞ-in xüsusiyyətlərinin nəzərə alınaraq öyrədici və inkişafetdirici olmasıdır. Buna nail olunması üçün hər uşaq üçün fərdi fəaliyyət planı (FFP) tutulur. FFP uşaqlarla iş zamanı müəllim, valideyn və mütəxəssislər üçün bir bələdçidir. FFP–SİM uşaqlarla iş zamanı istifadə olunan ən vacib alət olmaqla yanaşı, eyni zamanda uşaq və ona təqdim ediləcək xidmətlər haqqında ətraflı informasiyanı əhatə edən vacib sənəddir.

Bu plan müəyyən bir dovrü əhatə edir. Uşaqların bilik və bacarıqlarının qiymətləndirilməsi hər dövrün sonunda həyata keçirilir. Yəni qiymətləndirmə fəaliyyət planında nəzərdə tutulmuş məqsədlərə nail olub-olmamasının göstəricisi olur.

Yeni dövr üçün FFP tərtib olunanda bu qiymətləndirmənin nəticələri rəhbər tutularaq yeni (əgər uşaq hansısa biliyi mənimsəməyibsə - təkrar) hədəflər qoyulur.

**Fəaliyyət planlarının dəyişilməsi zamanı qiymətləndirmənin aparılması üçün məsləhətlər:**

1. Kurikulumda dəyişikliklərin edilməsi məqsədi ilə qiymətləndirmə məlumatından istifadə üçün müəllimlərin əməkdaşlığı

Həm formativ, həm də summativ qiymətləndirmə təlimat materialları və təlim strategiyalarının məqsəd və effektivliyinin əks etdirilməsində istifadə edilə bilər. Qiymətləndirmə məlumatının toplanması və təhlili, eləcə də nəticələrin müzakirəsi, çətinliklərin müəyyən edilməsi və həll yollarının tövsiyə edilməsi üçün bu mövzular ətrafında həmkarlarla əməkdaşlıq həm effektivlik, həm də potensialın artırılmasına təsir edə bilər.

***Tədrisə mənfi təsir***

Ənənəvi testlər və imtahanlar müəllimlərin şagirdlərin nəyi xatırlamalı olduğu fikrinə əsasən şagirdlərin nəyi xatırladığını açıqlasa da, burada təlimin əsas məqsədi, mənası və faydasının üzə çıxmadığını görmək mümkündür.

Bu cür yoxlama qiymətləndirmənin məhdud (yalnız çox dar akademik keyfiyyətlər qiymətləndirilir), "Qəfil ölüm" (namizədlər yalnız özlərinin qısa imtahan dövründə etdiklərinə görə qiymət alırlar) və qeyri-informativ (verilən qiymət namizədin nəyi bildiyini və nəyi edə bildiyini əks etdirmir) formalarını təmsil edir.

***Kurikuluma mənfi təsir***

İmtahanlar əsas ağırlığın faktiki məlumatları xatırlama və mexaniki əzbərləmə üzərində qurulduğunu göstərir. Nəticədə, onlar müəllimləri şagirdlərə daha geniş və yüksək səviyyədə və anlaşıqlı dərs deməyə sövq etmək əvəzinə, uşaqlara sadəcə dar çərçivəli test etmə bacarığını aşılamağa yönəldə bilər. Təlimə bu prinsipdən yanaşma şagirdləri nəzərdə tutulan təlim hədəflərinə nail olmadan onlara imtahanları uğurla başa vurmaqda kömək edəcək problemlərin həll edilməsi kimi yanlışlığa gətirib çıxarır. Bu isə biliklərin səthi mənimsənilməsi və tez unudulmasına gətirib çıxarır.

***Müəllimlərə mənfi təsir***

Test nəticələrinin məktəblərinin təsvir və mühakimə etməkdə əsas mənbə olması səbəbindən müəllimlər arasında “Test-sevər” tədris proqramı ictimai utanc və təhqirdən yayınma üçün bir vasitəyə çevrilmişdir. Nəticədə bir çox müəllimlər test nəticələrinin yüksəldilməsi üçün hətta mübahisəli və əsaslı arqumentlərə əsaslanmayan təcrübələrdən də istifadə etməyə can atır.

***Şagirdlərə mənfi təsir***

Bu cür qiymətləndirmə prosesinin arzuolunmayan təsirlərindən biri də şagirdlərin kateqoriyalara ayırılmasıdır ki, bu da şüuraltında şagirdin nailiyyətlərinin məhdudlaşdırılmasına səbəb ola bilər. Müəllimin uşaqdan gözləntiləri az olduğu zaman onun performansına aktiv şəkildə maneə törədəcək bir əməl həyata keçirməsə belə, bu cür yanaşma şagirdlər arasında özünə qarşı etinasızlıq hallarına gətirib çıxara bilər. Bütün şagirdlərin daha çox işləmək və öyrənmələrinə davam etmələrinə təşviq edilməsi əvəzinə, beləmühit onları ruhdan sala və effektiv şəkildə sistemdən kənarlaşmalarına yol aça bilər.

2. Gələcək dərslərin hazırlanmasında summativ qiymətləndirmələrin nəzərə alınması

Summativ qiymətləndirmələr əsas diqqəti təlim həyata keçirildikdən, yəni ilin sonu və ya rüb imtahanları, yekun layihə və ya bölmə icmalından sonra öyrənən tərəfin performansı üzərində cəmləyir. Onlar əsasən hesabatvermə, qiymət haqqında qərar vermə və ya öyrənilən tərəflərin performansların müqayisə edilməsi məqsədinə xidmət edir. Summativ qiymətləndirmələr, həmçinin tədris strategiyalarının təkmilləşdirilməsi və hədəfə istiqamətlənən təlim mühitinin yaradılması üçün də istifadə oluna bilər.

3. Qiymətləndirmə məlumatları vasitəsilə şagirdlərin təlimin təkmilləşdirilməsi prosesinə cəlb edilməsi

Formativ qiymətləndirmə məlumatları, şagirdlərin inkişaf səviyyəsi barədə onlara vaxtı-vaxtında və özünəməxsus rəylərin bildirilməsi, nəzərdə tutulan səriştələrin dəstəklənməsi üçün mümkün uyğunlaşdırmalar və ya yeni strategiyalar üçün rəhbərliyin təmin edilməsi vasitəsilə nəzərdə tutulan təlim hədəfləri istiqamətində şagirdlərlərin şəxsi naliyyətləri ilə tanış edilməsi. Bu, şagirdlərə öz maraqlarını fəal şəkildə müdafiə etməsi və biliklərə yiyələnmə prosesləri üzərində şəxsi nəzarətin saxlanmasına yardım edir.

4. Ədədi və ya hərfi qiymətləndirmələr üçün alternativlərdən istifadə edilməsi

Ədədi və ya hərfi (A, B, C, D və F) qiymətvermə olmasından asılı olmayaraq ənənəvi qiymətləndirmə sistemləri şagirdlərə onların təlimləri və ya təlim hədəflərinə necə nail olmalı olduqları barədə məlumat vermir. Şagirdlərin qiymətləndirilmələri üçün alternativ vasitələrdən istifadə edilməsi barədə düşünmək lazımdır. Məsələn, bura mənimsəmə dərəcələri aid edilə bilər. Müəllimlər yoxlama sualları siyahısı və ya reytinq göstəricilərindən istifadə edə bilərlər. Qiymət yazmaq əvəzinə, müəllim təlim hədəfinə uyğun olaraq “Nəticə bəlli deyil”, “Başlanğıc”, “İnkişafda” və “Müstəqil” kimi qeydlər yaza bilər. Bu cür qiymətləndirmə qeydləri dərsdən və ya fərdi təlim məqsədlərindən asılı olaraq uyğunlaşdırıla bilər. Digər alternativlərə fərdi rəy, şagirdin özünü qiymətləndirməsi və əsas məqamlar və təkmilləşdirilməsi lazım olan sahələrin seçildiyi kompleks tədbirlər daxildir.

5. Şagirdlərin müxtəlifliyinin çevik qiymətləndirmə vasitəsilə dəstəklənməsi

Əlçatanlığın artırılması, şagirdin performansının qiymətləndirilməsi və şagirdlərin mümkün həyəcanlanma hallarının azaldılması üçün qiymətləndirmədə çevik seçimlər təklif edilməlidir.

6. Qiymətləndirmədə lazımsız maneələrin aradan qaldırılması

Qiymətləndirmələr nəzərdə tutulan təlim hədəfləri ilə əlaqə qurmaqda problemləri olan şagirdlər üçün tez-tez əlavə maneə və ya çətinliklər törədir. Mümkün olduqda ölçüləcək təlim hədəfləri ilə əlaqəsi olmayan maneələrin aradan götürülməsinə çalışılmalıdır.

7. Sıx-sıx formativ qiymətləndirmədən istifadə edilməsi

Formativ qiymətləndirmələr hədəflənmiş təlim məqsədlərinə nail olmaqda inkişafın ölçülməsi üçün davamedici və sürətli yollardan biridir. Formativ qiymətləndirmədən əldə olunan məlumatlar tədris planına dair qərarların qəbul edilməsinə təsir etməlidir. Sözügedən qiymətləndirmədə nəzərdə tutulan tədris hədəflərə nail olmaq üçün hansı təlim mühitinin yardımçı ola biləcəyinin müəyyən edilməsində istifadə oluna bilər.

8. Məzmun bilikləri ilə yanaşı, eyni zamanda göstərilən səylərin də qiymətləndirilməsi

Təlim prosesində şagirdin göstərdiyi səyin qiymətləndirilməsi onun öz-özünə təlim prosesinin dəstəklənməyi kimi qiymətləndirilə bilər. Səy göstərmə özlüyündə təlim prosesi üçün əhəmiyyətlidir, belə ki verilən tapşırıqda resurslardan strateji istifadə etməyin öyrənilməsi əhatəli, məqsədyönlü və hədəfə istiqamətlənən öyrənmə üçün imkan yaradıla bilər.

9. Qiymətləndirmə üçün həqiqi imkanların təklif edilməsi

Qiymətləndirmə üçün əlaqəli və həqiqi imkanların təklif edilməsi şagirdlərə faydalı biliyin ötürülməsi və təlimin "Nə" olduğu, "Necə" baş tutduğu və "Niyə" həyata keçirildiyinin başa düşülməsinə kömək edə bilər. Məsələn, buraya "Həqiqi dünya problemi" nin həll edilməsi, təcrübə, jurnallar, müzakirə və ya inşalar aid edilə bilər.

10. Qiymətləndirmənin təlim hədəfləri ilə uyğunlaşdırılması

Təlimin məqsədləri aydın olduqda qiymətləndirmələr müəllim və şagirdlər nəzərdə tutulan məqsədlərə nə dərəcədə yaxınlaşıldığı barədə ölçmə və müşahidə etmə imkanı ilə təmin edilir. Qiymətləndimələr təşkil edilən zaman təlim hədəfləri nəzərə alınsa, dərsdən əldə olunması nəzərdə tutulan hədəflərin ölçülməsi təmin edilə bilər.

## Tələbələr üçün fəaliyyətlər

1. Təlim fəaliyyəti planlaşdırılarkən qiymətləndirmə nəticələri nə üçün nəzərə alınmalıdır. Bir şagirdin fərdi fəaliyyət planını tərtib edin;
2. İbtidai sinif şagirdlərinin qiymətləndirilməsi necə təşkil edilməlidir ki, onun nəticələrindən gələcək işlərdə daha səmərəli istifadə etmək mümkün olsun (praktik olaraq göstərin);
3. Şagirdin qiymətləndirilmə nəticələrinin gələcək təlim fəaliyyətində istifadəsinin nümunəsini hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Fəaliyyət planlarının yenilənməsi zamanı qiymətləndirmə nəticələrindən müvafiq qaydada istifadə edir”**

1. Kurikulumda dəyişikliklərin edilməsi məqsədi ilə qiymətləndirmə məlumatından istifadə üçün müəllimlərin əməkdaşlığı haqqında təqdimat hazırlayın.
2. Qiymətləndirmənin təhsil sisteminə hansı mənfi təsirləri vardır?
3. Sizcə, qiymətləndirmənin hansı forması gələcək fərdi proqramın tərtibindən daha çox məlumat verir? Fikrinizi izah edin.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. «İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr» V Elmi-praktiki konfransın məqalələr toplusu 14-15 oktyabr 2011-ci il, Bakı, Azərbaycan Respublikası
2. İmanova L.H. və b. Xüsusi təhsil ehtiyacları olan uşaqlara müasir yanaşmalar. - Bakı, 2018.
3. N.T. Hüseynova – İnklüziv təhsil. Bakı-2014
4. S.Ə. Qasımov, E.M.Kərimova, İ.Sultanova, T.H.Ağayeva- İnklüziv təhsil Bakı-2006
5. Piter Vestvud (2009) "SİM uşaqlarla müəllimlər necə işləməlidirlər?", Müəllimlər, tərbiyəçilər üçün vəsait. Viktoria, Avstrya- 2006
6. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Azərbaycan Respublikası, 2009.
7. Azərbaycan Respublikası. "Azərbaycan Respublikasının Konstitusiyası." Bakı: Azərbaycan Respublikası, 1995.
8. BMT. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya və onun Fakültativ Protokolu. Mənbə : http://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf (sonuncu dəfə baxılıb: 25/08/2014), 2006.
9. İnklüziv təhsil - oxu materialları http://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf
10. Paula Bekman (1996), "Azyaşlı XQEU- ın valideynləri ilə işləmək üçün effektiv strategiyalar ". Müəllimlər, direktorlar, təhsil işçiləri üçün vəsait. Nyu York, ABŞ
11. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bağça-məktəb-lisey kompleksi. Inklüziv təhsil. Proqram-metodiki materiallarının layihələri. Bakı- 2006, səh - 20 BMT.
12. "Uşaq hüquqları haqqında" Konvensiya. Mənbə: http://www.ohchr.org/en/professionalinterest/pages/crc.aspx, 1989.
13. Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamənin təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI
14. Маллер А. Р. Социальное воспитание и обучение детей с отклонениями в развитии : Практ. пособие. – М., [АРКТИ], 2005. – 174 с.
15. Баталов, А. С. Использование инклюзивных педагогических технологий в диагностике речевого развития учащихся начальных классов / А. С. Баталов // Начальная школа, 2010. - №7. – С. 101-104
16. Инклюзивное образование: идеи, перспективы, опыт / Авт.-сост. Л. В. Голубева. – Волгоград: Учитель, 2011. – 96 с.

17. Выготский Л.С. Основы дефектологии. (1935)
18. Booth, Tony, and Mel Ainscow. The Index for Inclusion. A Guide to School Development Led by Inclusive Values. 4th Edition. Cambridge: Index for Inclusion Network, 2016.
19. 2001. Overcoming Exclusion through Inclusive Approaches in Education: A Challenge and a Vision. Paris: UNESCO.
20. UNESCO (2007). Global monitoring report 2008: Education for All by 2015.Will we make it. Paris: United Nations Education, Science and Cultural Organization.
21. UNESCO (2009). Towards inclusive education for children with disabilities: A guideline Retrieved from http://www.uis.unesco.org/Library/Documents/disabchild09-en.pdf
22. United Nation Universal Declaration of Human Rights. (1948). UN General Assembly.
23. http://psixologiyajurnali.az/content_files/psixologiya_2012-2.pdf
24. http://www.tipii.edu.az/noduploads/document/7406_nkluziv-sinifda-talimin-taskili-oxu-materiali.pdf
25. http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CRPD/C/GC/4&Lang=en
26. http://www.csie.org.uk/resources/inclusion-index-explained.shtml
27. http://worldofinclusion.com/resources/